QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 152 (5383) 24 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev Bakıdakı 257 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub



Səh 2

9

**Ermənistanda sosial gərginlik davam edir**



3

**Bakıda Qlobal Gənc Liderlər Forumu başa çatıb**



16

**Norveç və San-Marino yığmaları ilə oyunlar üçün Azərbaycan millisinin heyəti açıqlanıb**



# Prezident İlham Əliyev Bakıdakı 257 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub





***Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Xətai rayonundakı 257 nömrəli tam orta məktəbin əsaslı təmir edilən və yenidən qurulan mövcud binasında, həmçinin yeni tikilən korpusunda yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yeni korpusda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.***

Bildirildi ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1974-cü ildən fəaliyyət göstərir. Məktəbdə 38 sinif, 3 informatika, 3 laboratoriya, idman və akt zalları, yeməkxana var. Bu təhsil ocağının mövcud korpusu Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq əsaslı təmir edilib. Burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib.

Məktəbin yeni tikilən korpusu üçmərtəbəlidir. Foyedə ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsil sahəsinə göstərdikləri diqqəti əks etdirən fotostend quraşdırılıb.

Yeni korpus Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planında təhsil sahəsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq inşa edilib. Burada 24 sinif otağı, 1 informatika kabineti, fizika, kimya və biologiya laboratoriyaları var. 672 şagird yerlik əlavə korpus təhsil ocağında birnövbəli dərs rejiminə keçməyə imkan yaradır. Yeni korpusun istifadəyə verilməsi ilə 257 nömrəli tam orta məktəb 1848 şagird yerlik olacaq. Müasir səviyyədə inşa edilən binada videomüşahidə və yanğın xəbərdarlığı sistemləri yaradılıb. Yeni korpus internet, mebel-inventar və digər zəruri avadanlıqla da təchiz edilib. Təhsil müəssisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2754 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şirvan Əbilovun "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai həyatında fəal iştirakına görə Şirvan Rəşid oğlu Əbilov "Tərəqqi" medalı ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Nazirlər Kabineti Aparatının strukturunun təsdiq edilməsi haqqında Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Petro Poroşenkoya təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Azərbaycan ilə Ukrayna arasındakı ənənəvi dostluq əlaqələri, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız dövlətlərarası münasibətlərimizin inkişafı üçün möhkəm bünövrədir. İnanıram ki, bu münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq arzulayıram".

# Bakıda Qlobal Gənc Liderlər Forumu başa çatıb




Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) təşkilatçılığı ilə Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumu avqustun 23-də işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, Forumun bağlanış mərasimində çıxış edən NGBM-in həmsədri, Dünya Bankının keçmiş vitse-prezidenti İsmail Serageldin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ənənəvi olaraq dünyanın tanınmış ictimai-siyasi xadimlərinin, o cümlədən sabiq prezidentlərin iştirakı ilə mühüm mövzuların müzakirə olunduğu beynəlxalq forum, konfrans və digər tədbirlər təşkil etdiyini bildirib. Qeyd edib ki, Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumu gələcəyin liderlərinin ideya və təşəbbüslərinin öyrənilməsi, onlar arasında əməkdaşlığın gücləndirilməsi və nüfuzlu ictimai-siyasi xadimlərin zəngin təcrübələrindən bəhrələnmək imkanı baxımından mühüm əhəmiyyət daşıyır. Dünyanın müxtəlif ölkələrindən olan gənc liderlər nəsillərarası dialoq imkanından bəhrələnərək, beynəlxalq sülhün və əməkdaşlığın inkişafına mühüm töhfə verən bu yaxşı imkandan səmərəli istifadə edərək maraqlı müzakirələr apardılar. İ.Serageldin Qlobal Gənc Liderlər Forumunun yüksək səviyyədə təşkil edilməsinə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə fəal dəstəyinə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. Sonda Forum iştirakçıları xatirə şəkli çəkdiriblər. Bununla da Qlobal Gənc Liderlər Forumuna yekun vurulub.

Qeyd edək ki, avqustun 21-də işə başlayan Foruma dünyanın 80-dək aparıcı gənc lider və tədqiqatçısı iştiraka qatılıb. Həmçinin Şvarzman, Rodos, Fulbrayt, Marşal, Truman, Mitcel, Geyts kimi nüfuzlu proqramlar tədbirdə təmsil olunub.

Harvard, Oksford, Kaliforniya, Monpelye, London İqtisadi və Siyasi Elmlər Məktəbi, Toronto, Tsinxua, Leypsiq, Corctaun, Corc Vaşinqton, Sarbon, Sapienza, Con Hopkins, Pekin, Prinston, Kornell, Yel, Stanford, Braun, Kolumbiya, Liverpul, Paris İqtisadiyyat Məktəbi, Çikaqo, Notr Dam, Miçiqan, Rotterdam, Barselona universitetləri kimi nüfuzlu ali təhsil ocaqlarının nümayəndələri, habelə bir sıra gənc iş adamları da bu mühüm tədbirdə iştirak ediblər. Bundan başqa, Foruma bəzi ölkələrin sabiq dövlət və hökumət başçıları, nüfuzlu ictimai xadimlər, habelə iri korporasiyaların rəhbərlərindən ibarət 20-yə yaxın ali səviyyəli qonaq da qatılıb.

Forumda liderliyin fərdi qiymətləndirilməsi, müasir dövrün ehtiyac duyduğu liderlik formaları, qadın və kişi liderliyi arasındakı fərqlər, həmçinin liderliyin daxili və xarici hüdudları müzakirə olunub, debatlar təşkil edilib. Tədbir iştirakçıları "Mənə görə liderlik nədir?", "Liderliyi necə öyrənmək olar?", "Qadın və kişilər fərqli şəkildə liderlik edirlərmi?", "Mədəniyyətlər fərqli yol göstərir?" kimi suallar ətrafında fikir mübadiləsi aparıblar.

Qlobal Gənc Liderlər Forumu gənc liderləri sabiq və indiki dövlət başçıları ilə əlaqələndirən, liderliyin bir çox meyarlarını tədqiq edən yeni platformadır.

# Gənclər və idman naziri Qəbələdə vətəndaşları qəbul edib



Avqustun 23-də gənclər və idman naziri Azad Rəhimov Qəbələ şəhərində Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki, İsmayıllı şəhər və rayonlarının sakinlərini qəbul edib. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda 20-dən artıq vətəndaşın müraciətinə baxılıb.

Gənclər sahəsi üzrə müraciətlər əsasən qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, istirahət düşərgələrinin təşkili, gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyətinə aid olub. İdman sahəsi üzrə müraciətləri isə fəxri adların verilməsi, idman mərkəzlərinin zəruri avadanlıqla təmin olunması, Olimpiya İdman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı məsələləri təşkil edib. Qəbulda bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.



## Sahibsiz heyvanlarla mübarizəyə və görüləcək profilaktik tədbirlərə dair müşavirə keçirilib

Avqustun 23-də Nazirlər Kabinetində sahibsiz heyvanlarla mübarizəyə və görüləcək profilaktik tədbirlərə dair müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə Baş nazirin müavini Əli Əhmədov, Səhiyyə Nazirliyinin, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyinin və Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxsləri iştirak ediblər.

Baş nazirin müavini Əli Əhmədov bildirib ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da sahibsiz heyvanlar problemi mövcuddur. Əhalinin sağlamlığının qorunması, virus daşıyıcısı olan sahibsiz heyvanların təcrid edilməsi üçün müvafiq qurumlar tərəfindən ciddi addımların atılmalı olduğunu vurğulayan Əli Əhmədov deyib: "Bu məsələnin həllində aparıcı ölkələrin təcrübəsindən də yararlanmaq lazımdır. Azərbaycan ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyasına qoşulub. Sahibsiz heyvanlar üçün sığınacaqlar yaradılmalı, onlar peyvənd olunmalı, yayıla biləcək xəstəliklərin qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir".

Müşavirədə problemin köklü həlli üçün əhali arasında maarifləndirmə işlərinin aparılmasının, bu məsələyə mətbuatın da geniş cəlb olunmasının vacibliyi vurğulanaraq, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verildi. Bu yaxınlarda Sumqayıt şəhərində sahibsiz itin dişləməsi nəticəsində azyaşlı uşağın həlak olmasına toxunan Baş nazirin müavini bildirdi ki, bu məsələ ciddi araşdırılmalıdır. Sonda məsələnin ciddiliyi nəzərə alınaraq onun nəzarətə götürülüb həll olunması üçün təkliflər paketinin hazırlanması, profilaktik tədbirlərin görülməsi barədə qərar qəbul olundu.

## Elmar Məmmədyarov Sudanın Azərbaycandakı səfiri ilə görüşüb



Xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Sudan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Mohamed Elias Mohamed əl-Haq ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfir Mohamed Elias Mohamed əl-Haq diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib və bu dövr ərzində iki ölkə arasında dostluq əlaqələrinin inkişafı üçün səylərini əsirgəmədiyini vurğulayıb. Görüşdə bu il Azərbaycan və Sudan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunduğu vurğulanıb.

Nazir Elmar Məmmədyarov Azərbaycan və Sudan arasında ikitərəfli, həmçinin müxtəlif beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın inkişafına verdiyi töhfələrə görə səfir Mohamed Elias Mohamed əl-Haqa təşəkkürünü ifadə edib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

# Yol infrastrukturunda yeni perspektivlər

## *İlham Əliyev: "Yol infrastrukturuna görə Azərbaycan indi dünya miqyasında qabaqcıl yerdədir"*

***Güclü iqtisadiyyat güclü, rəqabətədavamlı və keyfiyyətli istehsaldan başlayır. Bu baxımdan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illərdə sürətlə inkişaf edən respublikamız dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Belə ki, son 12 ildə dövlət başçısının uğurla həyata keçirdiyi siyasət Azərbaycanı regionda ən sürətlə inkişaf edən və məqsədlərinə doğru inamla irəliləyən dövlətə çevirib. Xüsusilə, son illər ölkəmizin sosial-iqtisadi inkişafını şərtləndirən əsas amillərdən olan sayılan yol infrastrukturu sahəsində köklü dəyişikliklər baş verib, mühüm layihələr həyata keçirilib, yeni yollar və körpülər salınıb. Bir sözlə, yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib.***



### Ölkə başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan addımdır

Məhz bu baxımdan, dövlət başçısının bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin bölgələrə səfərləri, bir daha göstərdi ki, regionların inkişafı hər zaman dövlət başçısının diqqətindədir. Son on iki ildə əldə olunan uğurlara diqqət yetirsək, görərik ki, Azərbaycanda heç vaxt, qısa zaman ərzində, bu qədər iş görülməyib. Xüsusilə, infrastruktur layihələrinin reallaşdırılması, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub və həmin siyasətin sayəsində ölkəmizdə son 6 ay ərzində iqtisadiyyatda 1,7 faiz artım qeydə alınıb, qeyri-neft sektorunda 4,4 faiz, kənd təsərrüfatı sahəsində 2 faiz artım mövcuddur. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir.

### Yeniləşən yol infrastrukturu

Azərbaycanda yol infrastrukturunun inkişafı bu gün ölkənin əsas prioritetlərindən birinə çevrilib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində qazanılan uğurların sırasında bu sahənin inkişafı xüsusi yer tutur. Ona görə də, yol təsərrüfatına göstərilən yüksək qayğı sözügedən sahədə daha böyük uğurların əldə olunmasına zəmin yaradır.





Ümumiyyətlə, insanların rahat və maneəsiz şəkildə gediş-gəlişini təmin etmək, yükdaşımaları asanlaşdırmaq məqsədilə təkcə ötən il ərzində yol infrastrukturunun yenidən qurulması ilə bağlı ölkə Prezidenti tərəfindən 48 Sərəncam imzalanıb. Bu sərəncamlarla nəzərdə tutulan layihələrin icrası 2 milyon əhalinin yaşadığı 356 yaşayış məntəqəsini birləşdirən 900 kilometr avtomobil yolunu əhatə edib. Cari ilin ötən aylarında da bu istiqamətdə tədbirlər davam etdirilib və daha 40 kəndlərarası, qəsəbələrarası avtomobil yollarının tikintisi ilə bağlı Sərəncam verilib.

Dövlətimizin başçısı ölkədə həyata keçirilən yol-infrastruktur layihələrinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu il 40 kənd yolu layihəsi icra edilməlidir. Bu layihələrin icrası yüzlərlə kəndin yol təsərrüfatını yaxşılaşdıracaq və əlbəttə ki, həm insanlara rahatlıq verəcək, eyni zamanda, iqtisadi inkişaf üçün də bunun böyük müsbət təsiri olacaq. Keçən il də kənd yolları layihələri uğurla icra edilmişdir. Bu il bu proses davam etdiriləcək. Əminəm ki, yaxın gələcəkdə bir dənə də olsun təmirsiz kənd yolu qalmayacaq".

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux avtomobil yolunun açılışında iştirak edərək yeni yolların açılışını gözəl hadisə kimi qiymətləndirib: "Bu səfər çərçivəsində çox önəmli açılışlar qeyd olunur. Onlardan biri bu kənd yolu layihəsidir. Bu kəndlərdə yaşayan insanlar üçün bu yol uzun illər böyük bir problem idi. Körpü yox idi, sel olanda, gediş-gəliş çətinləşirdi. İndi 36 kilometr uzunluğunda gözəl bir yol çəkilib. Bu, 11 yaşayış məntəqəsini birləşdirən dairəvi yoldur. Bu yol sizə rahatlıq verəcək. Eyni zamanda, bu yolun kənd təsərrüfatının inkişafı üçün də çox böyük əhəmiyyəti var. Bu yolun tikintisinə dövlət tərəfindən böyük vəsait ayrılmışdır. Bu, sırf sosial layihədir. Çünki bu yolun çəkilişi, ilk növbədə, insanların rahat hərəkəti üçün nəzərdə tutulub".

Dövlət başçısı onu da bildirib ki, yol olan yerdə inkişaf da olur: "Bu, doğrudan da, çox əlamətdar hadisədir. Yol olan yerdə inkişaf da olur. İndi həm sərmayə qoyuluşu, həm kənd təsərrüfatının inkişafı yol infrastrukturuna bağlıdır. Çünki yol həm insanlar üçün xidmət edir, gediş-gəliş asanlaşır, eyni zamanda, sizin məhsulunuz da bazarlara tez bir zamanda çatdırılır, itki də olmur. Yol kənd təsərrüfatı ilə məşğul olmaq üçün də əlavə imkanlar yaradır. Ona görə, yol həm sosial, həm iqtisadi layihədir. Ölkəmizdə yol layihələrinə çox böyük diqqət verilir. Demək olar ki, indi bütün magistral yollarımızda ən müasir səviyyə yaradılıbdır".

Bir sözlə, bütün bunlar onu göstərir ki, zəngin potensiala malik olan Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan nailiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. "Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", - deyən ölkə başçısı İlham Əliyev ötən illərdə avtomobil yollarının, yol qurğularının açılışı ilə bağlı çoxsaylı mərasimlərdə iştirakı zamanı bu sahənin inkişafı üçün öz dəyərli tapşırıq və tövsiyələrini verib.

**RƏFİQƏ KAMALQIZI**

# Tərtərdə məcburi köçkünlər üçün salınan yaşayış məhəlləsinin tikintisində son tamamlama işləri görülür







***Avqustun 23-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Tərtər rayonunda məcburi köçkünlər üçün salınan yaşayış məhəlləsində tikinti işlərinin gedişi ilə tanış olub.***

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Tərtər, Ağdam, Laçın və Kəlbəcər Rayon İcra hakimiyyətlərinin başçıları və yaşayış məhəlləsinin tikintisində çalışan şirkətlərin rəhbərləri ilə birlikdə tikinti sahəsinə baxış keçirib, işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na 2011-ci il 21 fevral tarixli Sərəncamla edilmiş Əlavələrin 1.7-ci bəndinin icrası ilə əlaqədar olaraq 1176 məcburi köçkün ailəsinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə salınan yaşayış məhəlləsinin tikintisində son tamamlama işləri görülür. Layihəyə əsasən yaşayış məhəlləsində hər biri dördmərtəbəli olmaqla, 34 yaşayış binası, 1200 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, musiqi məktəbi, həkim məntəqəsi, inzibati bina, klub icma mərkəzi, Avtomat Telefon Stansiyası inşa edilib. Binalardakı mənzillərin 120-si bir, 504-ü iki, 472-si üç, 80-i dördotaqlı olacaq. Məhəllədə inşaat işlərinin bu ilin sentyabr ayında başa çatdırılması nəzərdə tutulur. Baş nazirin müavini Əli Həsənov inşaat işlərinin gedişi ilə yaxından tanış olduqdan sonra tikinti şirkətlərinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirib.

Əli Həsənov inşaat işlərinin vaxtında başa çatdırılması məqsədilə konkret tapşırıqlar verib, işlərin tikinti qaydalarına uyğun olaraq yüksək səviyyədə icra olunmasının vacibliyini bildirib. Qeyd edib ki, tikinti işlərinin sürətlə aparılması ilə yanaşı, keyfiyyətə də ciddi fikir verilməli və yaşayış kompleksi bütün infrastruktur obyektləri ilə birlikdə yüksək səviyyədə təhvil verilməlidir. Tikinti şirkətlərinin nümayəndələri inşaat işlərinin gedişində heç bir problemin yaranmadığını diqqətə çatdırıblar.

Əli Həsənov jurnalistlərə müsahibəsində bildirib ki, Tərtər rayonunda 50 hektar ərazidə inşa edilən yaşayış məhəlləsi son 10 ildə Prezident İlham Əliyevin tapşırığı ilə məcburi köçkünlər üçün tikilən qəsəbələrin ən böyüyüdür. Yaşayış məhəlləsində orta məktəb binası yeni layihə əsasında inşa edilir. Uşaq bağçası, musiqi məktəbi, klub icma mərkəzi, inzibati bina, tibb məntəqəsi yüksək səviyyədə tikilib. Yaşayış məhəlləsinin təhvil verilməsi, burada yaradılan infrastruktur Tərtər rayonu üçün çox gözəl bir obyekt olacaq. Yaşayış məhəlləsinə ərazidə məskunlaşan məcburi köçkünlər köçürüləcək.



Baş nazirin müavini qeyd edib ki, Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində olan və böyük hissəsi ermənilər tərəfindən dağıdılmış "Marağa-150" abidəsinin ətrafı dövlətimizin başçısının tapşırığına əsasən abadlaşdırılır. Bu abidə Rusiya ilə İran arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra ermənilərin İran Marağasından Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə ermənilərin özləri tərəfindən 1978-ci ildə inşa edilib. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlayanda "Marağa-150" abidəsi ermənilər tərəfindən qəsdən dağıdılıb. Baş nazirin müavini erməni məkrini və yalanını ifşa etmək üçün tutarlı vasitə olan abidənin mühüm siyasi əhəmiyyətə malik olduğunu və ölkəmizə səfər edən insanlara göstəriləcəyini deyib.

Əli Həsənov qeyd edib ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı əsasında Bakı və Sumqayıt şəhərlərində qəzalı vəziyyətdə olan binalarda yaşayan məcburi köçkünlərin köçürülmə prosesinə başlanılıb. Masazır qəsəbəsində qəzalı vəziyyətdə olan energetika pansionatı bu yaxınlarda Mehriban xanım Əliyevanın iştirakı ilə tam köçürüldü. Artıq yeni köçürülmə üçün dörd bina da hazırdır. İki qəzalı bina da bu yaxınlarda köçürüləcək. Bu proses davam edir. Qaradağ rayonu ərazisində 1100 mənzildən ibarət bir qəsəbənin tikintisi başlanılıb. Bir il ərzində bu qəsəbə də hazır olacaq. Sakinləri oraya köçürüləcək qəzalı binalar da siyahılaşdırılıb. Baş nazirin müavini deyib: "Bu gün Cəbrayıl və Füzuli rayonlarının işğal olunduğu gündür. Artıq Cəbrayıl rayonunun bərpası başlanılıb. Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığı əsasında 50 ev tikilib. Cocuq Mərcanlı sakinləri həmin evlərə köçürülüb. Kənddə Şuşa məscidinin bənzəri inşa olunub. Bu gün kənddə əzan səsi eşidilir. Dövlətimizin başçısının tapşırığı əsasında əlavə 100 mənzilin tikintisi də sürətlə davam etdirilir. Cocuq Mərcanlı "Böyük qayıdış"ın başlanğıcıdır. Bu proses davam edəcək".

x x x

Sonra Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Tərtər rayonunun Şıxarx qəsəbəsinə gedərək "Marağa-150" abidəsi ətrafında aparılan tikinti-abadlıq işləri ilə tanış olub. Artıq abidənin ətrafı təmir edilib, əraziyə hasar çəkilib, işıqlandırma sistemi ilə təmin olunub. Abidənin ətrafında quraşdırılmış stendlərdə ermənilərin buraya köçürülmələrini sübut edən müxtəlif dillərdə yazılmış arxiv sənədləri və fotoşəkillər öz əksini tapacaq. Baş nazirin müavini Şıxarx qəsəbəsində məskunlaşan məcburi köçkün ailələri ilə də görüşüb, onların həyat şəraiti ilə tanış olub, müraciətlərini dinləyib. Qeyd edilib ki, Nazirlər Kabinetinin 2016-cı il 3 may tarixli sərəncamı ilə Ağdam və Tərtər rayonlarında təmas xəttinə yaxın yerləşən yaşayış məntəqələrində 2016-cı ilin aprel ayında erməni silahlı qüvvələrinin atəşi nəticəsində ziyan çəkmiş məcburi köçkünlərin məskunlaşdığı 228 yaşayış evinin bərpası və onların şəxsi əmlaklarına dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq vəsait ayrılıb. Ayrılmış vəsait müqabilində Tərtər rayonu üzrə 105 ailə, Ağdam rayonu üzrə isə 15 ailə olmaqla 120 ailəyə maddi yardım ödənilib. 182 evdə təmir-bərpa işləri 2016-cı ilin avqust ayında başa çatdırılıb ki, həmin evlərdən 20-si Tərtər rayonunda, 162-si isə Ağdam rayonu ərazisində yerləşir. Ermənistan silahlı birləşmələrinin atəşi nəticəsində Tərtər rayonunun Şıxarx, Çaylı, Həsənqaya, Buruc və Əskipara kəndləri ərazisində məcburi köçkün ailələrinin müvəqqəti məskunlaşdığı 78 dağılmış evin yenidən tikilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 7 noyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin ehtiyat fondundan vəsait ayrılıb. Ərazidə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən bərpa işləri aparılıb. Ayrılmış vəsait müqabilində 78 evin tikintisi bu ilin may ayında başa çatdırılaraq məcburi köçkün ailələrinin istifadəsinə verilib. Sakinlər göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Respublikada heyvandarlığın inkişafı istiqamətində mühüm addımlar atılır



Azərbaycanda orta hesablamalara görə 1,5 milyon baş inək və camış olduğu halda, ölkə üzrə təxminən 2 milyon ton süd istehsal edilir. Bu da hər sağılan qaramala görə sutkada təqribən 4-5 kq süd deməkdir. Çox aşağı məhsuldarlıq göstəricisi sayılan belə göstərici həm təsərrüfatların gəlirlə işləməməsinə səbəb olur, həm də bu qədər heyvanın bəsləndiyi ətraf mühitə və təbii ehtiyatlara ciddi ziyan vurur. Halbuki respublikadakı modern südçülük və ətçilik komplekslərində hər inəkdən sutkalıq süd istehsalı orta hesabla 20,5 kq təşkil edir, ayrı-ayrı təsərrüfatlarda isə bu rəqəm 28-29 kq da olur. Səbəb isə odur ki, modern südçülük komplekslərində saxlanılan heyvanlar yüksək məhsuldar cinslərdən olmaqla, yüz faiz süni yolla mayalandırılırlar. Bu baxımdan da, ötən həftə Prezident İlham Əliyevin iştiakı ilə açılışı olmuş Respublika Süni Mayalanma Mərkəzinin heyvandarlığın inkişafında müstəsna rol oynayacaq.



Göygöl rayonunda Respublika Süni Mayalama Mərkəzinin layihələndirilməsinə və tikintisinə dövlətimizin başçısı İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla start verilib. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində ölkədə heyvan mənşəli məhsulların istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalanma tədbirlərinin həyata keçirilməsini sürətləndirmək baxımından, bu mərkəzin əhəmiyyətli rolu var.

Respublika Süni Mayalanma Mərkəzinin ümumi ərazisi 3,26 hektardır. Ərazidə enerji təchizatı obyektləri, su hovuzları və nasosxana, kanalizasiya şəbəkəsi, yanğınsöndürmə sistemi, kənd təsərrüfatı texnikalarının saxlanması üçün qaraj, silos anbarı və digər yardımçı binalar tikilib. Ötən dövrdə Respublika Süni Mayalanma Mərkəzi ilə paralel olaraq ölkədə 12 regional süni mayalanma məntəqəsi də yaradılıb.



Mərkəzin kompleksinə üçmərtəbəli inzibati-laboratoriya binası, tövlə, yem anbarı və yemhazırlama sahəsi, baytarlıq klinikası və karantin məntəqəsi daxildir.

İndiyədək 115 min 488 fermer qeydiyyata alınıb. Həmçinin, bu günədək 41 min 42 baş heyvan süni mayalandırılıb. Süni mayalandırmadan 19 min 385 buzov doğulub. İndiyədək 3 milyon 179 min 400 manat məbləğində subsidiya verilib. Hazırda mərkəzdə 36 baş törədici heyvan var. Onlardan beşi qaramal, biri isə camış cinsidir. Mərkəzin iş prinsipinə uyğun olaraq, genetik materiallar istehsal olunan sahə ilə inzibati hissə bir-biri ilə təcrid edilib.

Üçmərtəbəli inzibati-laboratoriya binasının ümumi sahəsi 2320 kvadratmetrdir. Laboratoriyada Fransanın bu sahədə aparıcı şirkətinin istehsal etdiyi ən müasir avadanlıq quraşdırılıb. Bundan başqa, bu avadanlıqla işləmək üçün laboratoriya heyətinə təlimlər də keçirilib. Burada temperatur və havada azotun miqdarının təyini avtomatik idarə olunur. Laboratoriya bölməsinin bir hissəsində genetik materialın satış mərkəzi yerləşir. Kompleksdə azot çəni və azot təchizatı şəbəkəsi qurulub. Regionlardakı süni mayalanma məntəqələrinə azot xüsusi avtomobillərlə daşınır. Binanın ikinci mərtəbəsində isə təlim mərkəzi və təlimdə iştirak edənlər üçün yataqxana, mətbəx, camaşırxana və 60 nəfərlik toplantı zalı yerləşir. Binada mərkəzləşdirilmiş kompüter və videobaxış sistemləri quraşdırılıb. Bu sistem istənilən zaman Bakıdan, eləcə də, digər bölgələrdən Respublika Süni Mayalanma Mərkəzində aparılan işləri müşahidə etməyə imkan yaradır.

Kompleksin tövlə binası, o cümlədən, tövlənin havalandırma və işıqlandırma sistemləri ən müasir standartlara uyğun olaraq qurulub. Tövlənin daxilindəki temperatur və nəmlik, heyvanların yemlənməsi, peyinin təmizlənməsi prosesləri tam surətdə avtomatik idarə olunur. Biotəhlükəsizlik tələblərinə uyğun olaraq, tövlə daxilinə yemləmə və təmizləmə üçün traktorlar və digər mexanizmlər buraxılmır. Kompleksdə saxlanılan heyvanların hərəkəti üçün diametri 14 metr olan avtomatlaşdırılmış qurğu quraşdırılıb. Burada baytarlıq klinikası da inşa olunub.

Kompleksin yem anbarı və yemhazırlama sahəsində Almaniya istehsalı olan paylayıcı qurğu quraşdırılıb. Xüsusi proqramla təchiz edilən bu qurğu yem rasionuna görə, hər bir heyvanın önünə müvafiq miqdarda yem tökmək imkanına malikdir. Burada müxtəlif növ yemlər hazırlanaraq qarışdırıcıya, oradan isə yempaylayıcı qurğuya verilir. Mərkəzdə toxum götürülən heyvanların saxlanıldığı tövlədən normalara uyğun müvafiq məsafədə yeni alınmış heyvanlar üçün ümumi sahəsi 340,8 kvadratmetr olan karantin məntəqəsi inşa edilib.

Göygöldə istifadəyə verilən Respublika Süni Mayalanma Mərkəzi ölkədə qaramalın çoxaldılması üçün damazlıq materialına olan tələbatı tam qarşılayacaq və yerli heyvan cinslərindən istifadə olunmaqla yetişdirilmiş cinslərin də genetik imkanlarından faydalanmağa şərait yaradacaq. Eyni zamanda, RSMM respublikada qaramalın çoxaldılması üçün damazlıq materialına olan tələbatı tam qarşılıyacaq və yerli heyvan cinslərdindən istifadə etməklə yetişdirilmiş cinslərin də genetik imkanlarından istifadə etməyə şərait yaradacaq.

RSMM-də istifadə ediləcək törədici buğa və kəllər xarici ölkələrdən idxal olunacaq və törədici heyvanlar tam qapalı şəraitdə saxlanacaq, yemin paylanması və mikroiqlim parametrlərinin stabilliyi avtomatik olaraq kompyuterləşmiş sistem vasitəsilə idarə ediləcək. Qapalı şəraitdə saxlama və törədici heyvanların sağlamlıq statusunun stabil olması başlıca beynəlxalq tələblərdən biridir və mərkəzdə istehsal edilmiş genetik materialın ixrac imkanlarını artıracaq.

***"Səs" Analitik Qrupu***

## Gürcüstan Prezidenti: Azərbaycanlılar göstərdi ki, onlar gürcülərin tarixi dostlarıdır



Gürcüstan Prezidenti Georgi Marqvelaşvili Azərbaycan, Türkiyə və Belarusdan olan yanğınsöndürənlərə Barjomidə meşə yanğınları ilə mübarizədə göstərdikləri köməyə görə təşəkkür edib. Trend bu barədə "Sputnik-Georgia"ya istinadən xəbər verir. G.Marqvelaşvili hadisə yerinə gələrək vəziyyətlə tanış olub: "Biz gördük ki, azərbaycanlılar, türklər və belaruslular gürcülərin nə qədər səmimi dostlarıdır".

Prezident kömək edən bütün ölkələrə təşəkkürünü bildirib.

Qeyd edək ki, Gürcüstanın Daba kəndi yaxınlığında yerləşən meşədə yanğın avqustun 20-dən davam edir. Hazırda yanğın lokallaşdırılsa da, tam söndürmək mümkün olmayıb. Dağlıq ərazi, külək və quru hava yanğının tam söndürülməsinə mane olur. Yanğının söndürülməsinə kömək üçün Azərbaycan 3 helikopter, texnika və canlı qüvvə göndərib.

## Kvemo Kartli-Borçalı bölgəsinin qubernatoru Azərbaycan Prezidentinə minnətdarlıq edib





***Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov avqustun 23-də bu ölkədə azərbaycanlıların sıx məskunlaşdıqları Kvemo Kartli-Borçalı bölgəsinin qubernatoru Qriqol Nemsadze ilə görüşüb. AZƏRTAC xəbər verir ki, səfir Q.Nemsadzenin Kvemo Kartli bölgəsinin qubernatoru vəzifəsində fəaliyyətinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümid etdiyini bildirib.***

Qubernator Azərbaycan Prezidenti İlham Əliyevə Gürcüstanın Borjomi-Xaraqauli qoruğunda baş vermiş meşə yanğınlarının söndürülməsində göstərilən ilk yardıma görə minnətdarlığını bildirib.

Sonra görüşdə ölkələrimiz, eləcə də ayrı-ayrı regionlarımız arasında əlaqələrin genişləndirilməsi, Kvemo Kartli bölgəsində yaşayan soydaşlarımızın qayğıları və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Soydaşlarımızın sosial qayğılarının Azərbaycan və Gürcüstan dövlətləri üçün prioritet məsələlərdən biri olduğu vurğulanıb. Azərbaycanlıların yığcam yaşadıqları ərazilərdə kütləvi mədəni tədbirlərin keçirilməsi və Kvemo Kartli bölgəsində nəzərdə tutulan digər layihələr müzakirə olunub.

***Xətayi Əzizov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tbilisi***

# Azərbaycan sülh və əməkdaşlıq məkanı, qlobal dialoq mərkəzidir

*Qlobal Gənc Liderlər Forumu gənc liderləri sabiq və indiki dövlət başçıları ilə əlaqələndirən, liderliyin bir çox meyarlarını tədqiq edən yeni platformadır*

Hazırda Azərbaycanın beynəlxalq nüfuzu gündən-günə yüksəlir, dünya ictimaiyyəti respublikamızda həyata keçirilən islahatlar kursunun mahiyyəti ilə bağlı dolğun, hərtərəfli, obyektiv informasiya almaq imkanı qazanır. Bütün bunlar həm də bir sıra iqtisadi, siyasi və humanitar beynəlxalq tədbirlərin keçirilməsi məkanı olaraq, məhz Bakı şəhərinə üstünlük verilməsi ilə nəticələnir. Bakı sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında Azərbaycanın praqmatik xarici siyasəti az rol oynamır. Respublikada müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirir. Bakıda hər il beynəlxalq humanitar forumların keçirilməsi, ilk növbədə, respublikamızın sivilizasiyalararası dialoq prosesində fəal mövqe tutduğunu, mədəniyyətlər arasında körpü rolunu oynadığını göstərir. Elə avqustun 21-də Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə işə başlayan Qlobal Gənc Liderlər Forumu da söylənilənləri isbatlayır.

Qeyd edək ki, forumda dünyanın 50-yə yaxın aparıcı gənc lider və tədqiqatçısı iştirak edir. Həmçinin, Şvarzman, Rodos, Fulbrayt, Marşal, Truman, Mitcel, Geyts kimi nüfuzlu proqramlar tədbirdə təmsil olunur. Həmçinin, Harvard, Oksford, Kaliforniya, Monpelye, London İqtisadi və Siyasi Elmlər Məktəbi, Toronto, Tsinxua, Leypsiq, Corctaun, Corc Vaşinqton, Sarbon, Sapienza, Con Hopkins, Pekin, Prinston, Kornell, Yel, Stanford, Braun, Kolumbiya, Liverpul, Paris İqtisadiyyat Məktəbi, Çikaqo, Notr Dam, Miçiqan, Rotterdam, Barselona universitetləri kimi nüfuzlu ali təhsil ocaqlarının nümayəndələri, habelə, bir sıra gənc iş adamları da bu mühüm tədbirdə iştirak edirlər. Bundan başqa, foruma bəzi ölkələrin sabiq dövlət və hökumət başçıları, nüfuzlu ictimai xadimlər, habelə, iri korporasiyaların rəhbərlərindən ibarət 20-yə yaxın ali səviyyəli qonaq da qatılıb.

Forumda liderliyin fərdi qiymətləndirilməsi, müasir dövrün ehtiyac duyduğu liderlik formaları, qadın və kişi liderliyi arasındakı fərqlər, həmçinin, liderliyin daxili və xarici hüdudları müzakirə olunacaq, debatlar təşkil ediləcək. Tədbir iştirakçıları “Mənə görə liderlik nədir?”, “Liderliyi necə öyrənmək olar?”, “Qadın və kişilər fərqli şəkildə liderlik edirlərmi?”, “Mədəniyyətlər fərqli yol göstərir?” kimi suallar ətrafında fikir mübadiləsi aparılır.

Ümumiyyətlə, bu cür tədbirlərin, forumların keçirilməsi, dünyanın tanınmış liderlərinin təcrübəsinin paylaşılması və s. perspektiv inkişaf üçün əlverişli şərait yaradan faktorlardan hesab edilir. Bunu forumda iştirak edən nümayəndələrin də fikirlərindən görmək mümkündür.

Belə ki, ABŞ-ın Nyu-York ştatında fəaliyyət göstərən Kornell Universitetində biologiya üzrə tədqiqatçı Svati Sureka söyləyib ki, dünyanın müxtəlif ölkələrindən fərqli mədəniyyət və düşüncəyə malik gəncləri bir forumda toplamaq çox gözəl ideyadır. Biz burada müxtəlif peşə sahibləri ilə tanış olur, təcrübələrimizi bölüşür, yeni ideyalar irəli sürürük: “Qlobal Gənc Liderlər Forumu gələcək uğurlarımızda bir açar ola bilər. Bu baxımdan, forumun böyük əhəmiyyəti var”.



Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin öz çıxışında demişdi ki, Qlobal Gənc Liderlər Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin reallaşdırdığı önəmli tədbirlərdən biridir. Gələcəyə baxmaq, problemlərin həllinə müxtəlif baxışlardan, nöqteyi-nəzərlərdən yanaşmaq lazımdır. Bu gün dünyamız bir çox problemlərlə qarşılaşıb. Elə problemlər var ki, həllini tapmayıb. Müharibələr, eləcə də, etnik və məzhəb qarşıdurmaları mövcuddur. Bəzi həll olunmamış problemlər var ki, onların həllində ümid gənclərədir. Ona görə də, gənclərə yol açmaq, onların gələcək liderlər kimi proseslərdə fəal iştirakına şərait yaratmaq çox önəmlidir. Sabiq nazir deyib: “Qlobal Gənc Liderlər Forumu dünyanın hər yerindən - Afrikadan, Asiyadan, Amerikadan, Avropadan gəncləri bir araya gətirərək, onlara mühüm problemləri müzakirə etmək imkanı yaradır. Daha yaxşı dünyanı qurmaq üçün nə etmək lazımdır? Dünyanın gələcəyi gənclərə bağlıdır. Gənclərin bacarığına inanıram. Bu baxımdan, Qlobal Gənc Liderlər Forumu üzləşdiyimiz problemlərin həllinə böyük töhfə verəcək. Bu forum həm Azərbaycan, həm bölgə, həm də dünya üçün çox önəmlidir”.

ABŞ təmsilçisi Daniel Qoldstern isə deyib ki, Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumu gənclərin öyrənmələri üçün çox yaxşı platformadır. Dünyanın müxtəlif ölkələrini təmsil edən gənclərlə görüşmək həyəcanvericidir. Bu, həm də fərqli baxışlara, mədəniyyətlərə malik insanlarla tanış olmaq deməkdir. Biz bu forumda qlobal siyasi məsələləri də öyrənməkdə maraqlıyıq. Amerikalı qonaq qeyd edib ki, Bakı Forumu gənc liderlərlə səmərəli əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından gözəl imkandır. Forumun daha bir əhəmiyyəti ondan ibarətdir ki, burada gənc liderlər təcrübəli insanlarla bir araya gələrək, aktual məsələləri müzakirə edirlər. O, əmin olduğunu bildirib ki, forumda aparılan fikir və təcrübə mübadilələri faydalı nəticələr verəcək.



Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının sabiq direktoru İsmail Serageldin söyləyib ki, adətən, cəmiyyətdə təcrübəsi olan insanlardan, o cümlədən, siyasi, ictimai xadimlərdən, sabiq dövlət və hökumət başçılarından və digər nüfuzlu şəxslərdən nə isə öyrənilir. Lakin gələcəyin liderlərini də yaddan çıxarmaq olmaz. O deyib ki, gələcəyin liderləri çox gənc, eyni zamanda, fəal insanlardır. Onlar yeni şəbəkə yaradacaq. Bu, həm Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, həm Bakı, həm də Azərbaycan üçün dost olan yeni şəbəkə olacaq. Bir yerdə işləmək və ideyaları bölüşmək çox qısa müddətdə öz faydasını verəcək. Ukraynanın sabiq prezidenti Viktor Yuşşenkonun xanımı Katerina Yuşşenko da bildirib ki, dünyanın müxtəlif ölkələrindən olduqca fəal, mütərəqqi gəncləri, eləcə də, təcrübəli, nüfuzlu şəxsləri Bakıda bir araya gətirmək parlaq ideyadır. Qlobal Gənc Liderlər Forumu çərçivəsində yaşlı və gənc nəslin nümayəndələrinin apardıqları fikir mübadiləsi önəmlidir. Hər iki nəslin bir-birindən öyrənəcəyi şeylər çoxdur. Bütün bunlar həm özümüzün, həm də yaşadığımız dünyanın dəyişməsinə kömək edə bilər. Ümumiyyətlə, Qlobal Gənc Liderlər Forumu dünyanın daha da yaxşıya doğru dəyişməsinə öz töhfəsini verəcək.

Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliev deyib ki, Qlobal Bakı Forumu özünü uğurla doğruldub. İndiyə qədər Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə beş Qlobal Forum keçirilib. Dünyanın müxtəlif ölkələrindən siyasi liderlər, mədəniyyət adamları, ictimai xadimlər bu forumlarda planetimizin gələcəyi üçün vacib olan məsələləri müzakirə edir, önəmli qərarlar qəbul edirlər. İndi isə Bakıda Qlobal Gənc Liderlər Forumu keçirilir. İlk dəfə keçirilən bu forum çox önəmli tədbirdir.

Sabiq prezident qeyd edib ki, Qlobal Gənc Liderlər Forumu gələcək həyatımız baxımından mühüm tədbirdir. Bu forum dünyanın müxtəlif yerlərindən gəncləri bir məkanda toplayır. Gələcəyimizin daha yaxşı qurulması, planetimizin gələcək həyatına kömək üçün bundan yaxşı yol yoxdur. Gənclər həm fəaldırlar, həm də onların öz mövqeyi var. Ümumi fikrə gəlmək üçün debatları gənclərsiz təsəvvür etmək mümkün deyil. Bu baxımdan, dünyanın müxtəlif ölkələrindən gənclərin Bakıya gələrək, bu forumda iştirakı çox önəmlidir. Onlar həm fikir mübadiləsi aparacaq, həm də gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirəcəklər. Qlobal Gənc Liderlər Forumunda iştirak edən dünyanın nüfuzlu insanları, sabiq dövlət və hökumət başçıları çox müdrik insanlardır. Gənclərin və bu təcrübəli şəxslərin birgə müzakirə aparmaları çox əhəmiyyətlidir.

Latviyanın sabiq prezidenti Valdis Zatlers də söyləyib ki, bu gün Bakı dünyanın ayrı-ayrı ölkələrindən fərqli düşüncəyə və mədəniyyətə malik gəncləri bir araya toplayıb. Qlobal Gənc Liderlər Forumu əla ideyadır: “Forumun böyük əhəmiyyəti var. Buraya toplaşanlar fikir və təcrübə mübadiləsi aparırlar. Forum iştirakçıları həm də müxtəlif peşələrin sahibləridir. Onlar fərqli siyasi quruluşa malik ölkələrdən gəliblər. Beləliklə, bu forum müxtəlif düşüncəyə və baxışa malik insanların bir-biriləri ilə dil tapmasına, ortaq fikrə gəlməsinə kömək edir. Mən bu cür tədbirin keçirilməsindən çox məmnunam. Fikir mübadiləsi aparmaq problemlərin həllində ən yaxşı yoldur”.

Bir sözlə, göründüyü kimi, Qlobal Gənc Liderlər Forumu gənc liderləri sabiq və indiki dövlət başçıları ilə əlaqələndirən, liderliyin bir çox meyarlarını tədqiq edən yeni platformadır. Burada təcrübəli insanlarla müzakirələrin aparılması gənclərin fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə kömək edir. Avqustun 24-də başa çatacaq Qlobal Gənc Liderlər Forumunda gənc liderlər tanınmış siyasi xadimlərin təcrübələrindən yararlana biləcəklər.

***“Səs” Analitik Qrupu***

# Ekspert: "Ermənistanın tələbləri Avrasiya İqtisadi Birliyində təmsil olunan ölkələr tərəfindən rədd edilir"

***Türkiyənin Avrasiya İqtisadi Birliyi (AİB) ilə gömrük sazişi bağlamaq üçün irəli sürdüyü təşəbbüsün bu ölkənin Ermənistanla sərhədlərinin açılmasına heç bir aidiyyəti yoxdur. Bunu Trend-ə siyasi ekspert Bəhruz Quliyev son günlərdə sözügedən mövzu ətrafında Ermənistanın ictimai-siyasi xadimlərinin, dövlət rəsmilərinin Türkiyə qarşısında sərhəd qapılarının açılmasına hesablanmış şərtlər irəli sürəcəklərinə münasibət bildirərkən deyib.***



Ekspertin fikrincə, Ermənistan hakimiyyəti onsuz da öz qonşuları ilə münasibətlərində düşmən mövqeyi sergiləyir: "Yalnız Türkiyə və Azərbaycan deyil, eyni zamanda, Gürcüstana və İrana, hətta Rusiyaya və başqa postsovet ölkələrinə qarşı da bu ölkənin müəyyən torpaq iddiaları mövcuddur. Ermənilərin "dənizdən-dənizə böyük Ermənistan" planı əsasında hazırlanmış xəritəyə nəzər salsaq, biz bu iddiaları aşkar şəkildə görə bilərik. Eyni zamanda, bu gün Ermənistanın konstitusiyasında, o cümlədən, dövlət gerbində Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı kimsəyə sirr deyil. Bu baxımdan, Türkiyənin regiondakı mühüm iqtisadi-siyasi rolunu nəzərə alsaq, həmçinin Rusiyanın məlum təşəbbüsü dəstəkləməsinə, müsbət cavab verməsinə diqqət yetirsək, Ermənistan siyasi rəhbərliyinin tələblərinin yolverilməz olduğunu vurğulaya bilərik. Ümumiyyətlə, Ermənistan rəhbərliyinin tələbləri AİB-də təmsil olunan ölkələr tərəfindən rədd edilir". B.Quliyev digər bir faktoru - Ermənistanın sözdə müstəqil dövlət olmasını, eyni zamanda, siyasi, iqtisadi və hərbi cəhətdən bilavasitə Rusiyadan asılı olmasını xatırladaraq bildirib ki, Türkiyənin AİB-ə üzvlüyü sırasında həlledici sözü Ermənistan deyil, Rusiya və orada təmsil olunan digər ölkələr deyəcək: "Sirr deyil ki, Rusiyadan başqa Qazaxıstan, Belarus kimi ölkələr də güclü Türkiyənin bu ittifaqa qoşulmasına açıq dəstək göstərirlər. Belə olan halda, ermənilərin siyasi şantaj xarakterli bəyanatlarını, xüsusilə, Ermənistan xarici işlər nazirinin müavini Şavarş Köçəryanın sərsəm iddialarını reallaşa biləcək tələb kimi qəbul edə bilməzik".

Siyasi ekspert Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hələ Baş nazir olduğu dövrdə, 2009-cu ildə Bakıya rəsmi səfərini və Azərbaycan Parlamentindəki çıxışını xatırladaraq bildirib ki, məhz həmin dönəmdə də siyasi kuluarlarda bənzər iddialar səslənməsinə baxmayaraq, Ərdoğan Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmayacağı təqdirdə Ermənistanla sərhəd qapılarının açılmayacağını qəti şəkildə bəyan etmişdi: "Tam əminliklə deyə bilərəm ki, Türkiyə Ermənistanla sərhədlərini açmayacaq. Yalnız Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapdıqdan sonra qardaş ölkə həmin məsələni gündəmə gətirə bilər. Bu səbəbdən, hesab edirəm ki, Ermənistanın siyasi rəhbərliyinin bu və ya digər tipli bəyanatlar səsləndirməsi bu ölkədəki despot rejimə qarşı narazı olan xalq kütləsinin susdurulmasına yönəlmiş fikirlərdir, daha dəqiq isə daxili publikaya yönəldilən uğursuz siyasi gedişdir. Çünki Ermənistan iqtidarı çox yaxşı bilir və anlayır ki, onların tələblərinə əməl olunmayacaq və Türkiyə qısa zamanda AİB-ə üzv olaraq regionun iqtisadi inkişafına töhfələrini verəcək".

# Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun aviasiya hərbi hissəsinin SU-25 hücum təyyarələri təlim uçuşları keçirib



***Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun aviasiya hərbi hissəsinin SU-25 hücum təyyarələri təlim uçuşları keçirib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, SU-25 hücum təyyarələrinə texniki baxış keçirildikdən sonra uçuşlara icazə verilib.***

Uçuş zolağına doğru hərəkət edən təyyarələr Naxçıvan səmasında uğurlu uçuşlar həyata keçiriblər. Modernizə edilmiş SU-25 hücum təyyarəsi döyüş meydanında, istənilən hava şəraitində, gecə-gündüz quru qoşunlarının bilavasitə dəstəklənməsi və müxtəlif obyektlərin məhv edilməsi üçün təyin olunub.





SU-25 hücum təyyarəsi döyüşdə sağqalma və yüksəkmüdafiəli sistemlərə malikdir. Əsas diqqət pilot kabinəsinin və yanacaq sisteminin təhlükəsizliyinə yönəldilib. Modernizə edilmiş SU-25 hücum təyyarəsinin güclü döyüş kompleksinə müxtəlif toplar, aviabombalar, "Hava-yer" idarəolunmayan, "Hava-hava" idarəolunan raketlər daxildir. Ümumilikdə təyyarəyə 32 növ silah quraşdırıla bilər. Təlim uçuşlarının müvəffəqiyyətlə aparılması bir daha onu göstərib ki, Əlahiddə Ümumqoşun Ordusunun digər birləşmə, hissə və bölmələri kimi aviasiya eskadrilyası da istənilən döyüş tapşırığını uğurla və qətiyyətlə yerinə yetirməyə hazırdır. Uçuşları uğurla başa vuran heyətlərə komandanlıq tərəfindən təşəkkür elan edilib.

# Fərasət Qurbanov: “İnanmıram ki, hansısa QHT Leyla Yunus kimi pozucu bir şəxsin fitvasına uysun”

***- Fərasət müəllim, QHT-lərin siyasi proseslərə qarışması, dağıdıcı müxalifət ilə eyni mövqedən çıxış etməsi QHT-lər haqqında qanunun tələblərinə nə dərəcədə uyğun gələ bilər?***

- QHT-lər hər hansı bir ictimai maraqların təmin edilməsi istiqamətində birləşmiş könüllü qruplardır. Bu qrupların fəaliyyəti onların nizamnaməsi ilə tənzimlənir. Yəni hər bir QHT-nin özünün nizamnaməsi var və onun bütün fəaliyyəti, məhz həmin nizamnamə üzrə qurulur. O nizamnamədə də, məhz ictimai maraqlar, hansı bir sosial problemin həlli, yəni hansısa humanitar yönümlü bir fəaliyyətlə məşğul olmaq orda təşkil olunmayıb. Nizamnamədə heç də siyasi fəaliyyət, hər hansı bir siyasi düşərgənin missiyasına xidmət etmək kimi fəaliyyət təsbit olunmur. QHT-lər haqqında qanunda da QHT-lər seçkili orqanlarda iştirak edə bilməz. Yalnız onlar seçkiləri müşahidə etmək səlahiyyətlərinə malikdirlər. Bu da, ondan xəbər verir ki, QHT-lərin fəaliyyəti heç də siyasi deyil, humanitar, cəmiyyətimizi narahat edən, yəni ictimai həyatın ayrı-ayrı sahələrinə xidmət edən könüllü vətəndaş birlikləridir. Bu vətəndaş birliklərinin fəaliyyətində sırf könüllü fəaliyyət durur.



Müsahibimiz Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının icraçı direktoru Fərasət Qurbanovdur

***- Bu gün bəzi QHT-lərin dağıdıcı müxalifət partiyaları ilə sıx əməkdaşlıqları mövcuddur. Bələ QHT-lər niyə cəzalandırılmır?***

- QHT-lər öz enerjili resurslarını cəmiyyətin ayrı-ayrı təbəqələrinin problemlərinin və yaxud digər məsələlərin həllinə yönəldən və insanlığa xidmət edən humanitar fəaliyyətdir. Təəssüf ki, bəzi QHT-lər öz nizamnamə məqsədlərindən kənara çıxaraq, siyasi fəaliyyətlə məşğul olmağa cəhd göstərir və yaxud ayrı-ayrı siyasi partiyaların mövqelərindən çıxış edirlər. Yəni ayrı-ayrı siyasi partiyaların çirkin məqsədlərinə çatması üçün onlara müəyyən dəstək verirlər. Bu cür hərəkətlər qanunla yolverilməzdir. O cümlədən, həmin QHT-lər özlərinin nizamnaməsinin müddəalarına zidd olan fəaliyyət yolu tutmuş olurlar. Ümumiyyətlə, QHT-lərin fəaliyyəti siyasi məqsədlər deyil, birlik üzvlərinin, cəmiyyətin, icmanın mənafeyinə xidmət edən, hətta orda əldə olunan gəliri belə bölüşdürməyən bir humanitar fəaliyyət növüdür. Arzu edərdik ki, ölkəmizdə QHT-lərin fəaliyyəti sırf humanitar əsaslar üzərində qurulsun. Yəni cəmiyyətə, vətəndaşa və dövlətə xidmət edən təşkilatlar olsunlar. Belə olan halda, QHT-lərin fəaliyyəti yüksək qiymətləndiriləcək və QHT-lərə ehtiyac cəmiyyətdə günü-gündən artacaq. Bu gün də biz bunu hiss edirik. Bizim QHT-lərimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ailə məsələləri, ətraf mühitlə, sosial məsələlərlə, təhsilə, mədəniyyətimizlə, iqtisadi məsələlərlə, əlillərlə, qadın-uşaq məsələləri ilə bağlı və s. kimi yüzlərlə layihələr həyata keçiriblər ki, bu da cəmiyyətimizin inkişafına öz töhfəsini verir.

***- Siyasiləşmiş QHT-lərin əsas ideoloqlarından olan Leyla Yunus Azərbaycanda QHT-lərə müəyyən təlimatlar verir və onlara Azərbaycanda insan hüquqlarının pozulması haqqında iddialı şər-böhtan xarakterli bəyanatlar səsləndirməyə çağırır. Belə QHT-lərə qarşı hansı tədbirlərin görülməsini zəruri hesab edərdiniz?***

- Leyla Yunus və onun kimi adamların fəaliyyəti artıq cəmiyyətimizə bəllidir. Bunları QHT adlandırmaq da doğru deyil. Çünki bunlar öz fəaliyyətlərində cəmiyyət və dövlətə qarşı qərəzli mövqe nümayiş etdirirlər. Onların nümayiş etdirdikləri siyasi xətlərində açıq görünür ki, bunlar ölkəmizə qənim kəsilmiş şəxslərdir. Adları çəkilən bu şəxslər Azərbaycan dövlətinin əldə etdiyi uğurlarına paxıllıq hissi ilə yanaşaraq, bu uğurlara nə isə bir kölgə salmağa çalışırlar. Ancaq onların özlərinə tərəfdaş, xarici maraqlı fondlardan dəstək toplamaları üçün etdikləri canfəşanlıqların heç biri öz bəhrəsini verməyəcəkdir. Çünki inanmıram ki, hansısa QHT L. Yunus kimi pozucu bir şəxsin fitvasına uysun. L.Yunus kimi şəxslərin fəaliyyətləri tamamilə qanuna ziddir. Onun fəaliyyəti, bütövlükdə, milli maraqlarımıza zidd olan bir hərəkətdir. Bu baxımdan, belə məsələlərdə QHT-lər diqqətli olmalıdırlar. Yəni yalan, şər-böhtan xarakterli siyasi çağırışlara meyilli olmamalıdırlar. Hər bir QHT öz nizamnaməsini diqqətlə oxumalı, nə üçün fəaliyyət göstərdiyini bir daha aydınlaşdırmalı və nizamnamə məqsədlərindən kənara çıxmamalıdır.

***GÜLYANƏ***

# Dünya Bankının nümayəndələri: Naxçıvanın bütün bölgələrində mühüm infrastruktur layihələri reallaşdırılıb





Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində Dünya Bankının layihə üzrə Tapşırıq Qrupunun rəhbərləri Satoşi İşihara və Tara Şarafudin Naxçıvan Muxtar Respublikasında ikigünlük səfərdə olublar. Onlar Naxçıvanda layihələrlə bağlı fikir mübadiləsi aparıblar.

Qonaqlar muxtar respublikaya səfərlə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşüblər. Naxçıvan Muxtar Respublikasına səfərlərinin məqsədi barədə danışan Satoşi İşihara deyib: “Biz buradakı tərəfdaşlarımızla görüşmək, muxtar respublika iqtisadiyyatının davamlı inkişafı və şaxələndirilməsi, həmçinin insan kapitalının inkişaf etdirilməsinin dəstəklənməsi sahəsində Dünya Bankının fəaliyyətinin mümkün istiqamətləri barədə müzakirələr aparmışıq. Eyni zamanda, layihənin 3-cü fazasının həyata keçirilməsi üçün hazırlıqlar haqqında fikir mübadiləsi apardıq. Bu layihənin məqsədi kənd yaşayış məntəqələrində infrastruktur xidmətlərinin yaxşılaşdırılması, bələdiyyələrin fəaliyyəti, kənd təsərrüfatı məhsulları istehsalının dəstəklənməsi və sair haqqında olacaq”.

Əvvəllər də Naxçıvana gəldiyini bildirən S.İşihara qeyd edib ki, ötən müddətdə muxtar respublikada çox böyük müsbət dəyişikliklər baş verib. Bütün bölgələrdə mühüm infrastruktur layihələri həyata keçirilib. Xüsusilə kəndlərdə əhalinin yaşayıb fəaliyyət göstərməsi üçün mühüm addımlar atılıb, yeni yollar çəkilib, xidmət obyektləri istifadəyə verilib, bələdiyyələrin fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Naxçıvana ilk dəfə səfər etdiyini deyən xanım Tara Şarafudin deyib ki, muxtar respublikaya səfər çərçivəsində layihə ilə bağlı keçirilən görüşlərdə fikir mübadiləri apardıq: “Düşünürəm ki, qarşılıqlı anlaşmalar gələcək uğurlarımızın əsasını təşkil edəcək. Eyni zamanda, bunu xüsusilə vurğulamaq istərdim ki, burada bələdiyyələrin fəaliyyəti üçün lazımi şərait mövcuddur. Onlar ətraf mühitin qorunmasına, məişət tullantılarının daşınmasına öz töhfələrini verirlər. Naxçıvan şəhəri ilə yanaşı, kəndlərdə də təmizlik çox ciddi şəkildə qorunur. Regionla bağlı çox pozitiv təəssüratlara sahib oldum. Bunu da qeyd etmək istərdim ki, Naxçıvan yeniliklərə açıq, bu nümunəvi yenilikləri daim özündə tətbiq edən bir diyardır. İnanıram ki, qarşılıqlı əməkdaşlığımız görülmüş işlərə əlavə töhfə verəcək”.

**AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu**

## Ermənistanda sosial gərginlik davam edir



Ermənistanda sosial gərginlik davam edir. İşğalçı ölkədə növbəti etiraz dalğası Lori bölgəsində baş qaldırıb. AZƏRTAC xəbər verir ki, bir müddət əvvəl qızıl mədənlərinə gedən yolu bağlayan vətəndaşlar ölkədə özbaşınalıqlara son qoyulmasını tələb edirlər. Kəndlilər deyirlər ki, hökumət illərdir onların taleyi ilə maraqlanmır. Bu yerlərdə həyat dayanıb, fArdvidə yalnız səfalət, işsizlik, hökm sürür. Sakinlər problemlərinə çarə tapmaq üçün özləri layihə hazırlayaraq hökumətə təqdim ediblər. Onlar bu yerlərin gözəl təbiəti olduğunu əsas gətirərək, dövlət qurumlarından kənddə turizmin inkişafına dəstək istəyiblər. İndi sakinlər bu addımı atmalarına peşmandırlar. Çünki dağ-mədən şirkətlərinin diqqətini çəkiblər. Kəndin ərazisində yerləşən dağlarda qızıl yataqları var. Ardvidə yaşayanlar deyirlər ki, əgər orada qazıntı işlərinə başlanılarsa onları bu yerlərdən didərgin salacaqlar. Onsuz da bir vaxtlar yüzlərlə ailənin yaşadığı kənddə indi az adam qalıb. Buna səbəb isə yoxsulluğun gətirdiyi sosial problemlərdir. Belə yaşayışa dözə bilməyən sakinlər ev-eşiklərini qoyub xaricə üz tutublar. Ölkədən getməyə imkan tapa bilməyənlər isə burada qalıb min bir əziyyət içində yaşamağa məcburdurlar. Onlar kəndlərindəki qızıl mədəninin tapılmasına imkan verməyəcəklərini deyirlər. Ona görə də etirazçılar bir müddət əvvəl ekoloqların, parlament nümayəndələrinin, Ermənistan Ekologiya Nazirliyinin əməkdaşlarının qızıl yatağı olan Ardvi kəndinə daxil olmasına imkan verməyiblər.

# "Azexport"a 7 ayda 53 ölkədən 264 milyon dollar ixrac sifarişi daxil olub

***"Azexport"a 7 ayda 53 ölkədən 264 milyon dollar ixrac sifarişi daxil olub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu barədə qurumun "İxrac İcmalı"nın avqust ayı üçün təqdim olunmuş sayında qeyd olunub. İcmalda göstərilir ki, 2017-ci ilin 7 ayı ərzində qeyri-neft sektoru üzrə 855 milyon ABŞ dolları dəyərində mal ixrac olub. İxrac əməliyyatlarında 1333 subyekt iştirak edib. Bu ilin 7 ayı ərzində qeyr-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistanın adı var.***




Yeddi aylıq məlumatlarının təhlilindən aydın olub ki, qeyri-neft sektoru üzrə ixracda birinci yeri pomidor (tomat) (127,9 milyon ABŞ dolları), ikinci yeri qızıl (60,7 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (54,4 milyon ABŞ dolları) tutur. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin 7 ayı ərzində pambıq lifi ixracı 8,3 dəfə, elektrik enerjisi 3,2 dəfə, çay 60 faiz, meyvə-tərəvəz 42 faiz, kimya sənayesi məhsulları 30 faiz, alüminium və ondan hazırlanan məmulatlar 29 faiz, spirtli və spirtsiz içkilər 26 faiz, plastmassa və onlardan hazırlanan məmulatlar 12 faiz artıb.

Bu ilin iyul ayına gəldikdə isə qeyd edək ki, ötən ay qeyri-neft sektoru üzrə 459 subyekt tərəfindən 117 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilib. "Azexport.az" portalının qeyri-neft sektoru üzrə ixraca töhfə verməsinə gəlincə isə "İxrac İcmalı"nda qeyd edilir ki, 2017-ci ilin 7 ayı ərzində "Azexport.az" portalına dünyanın 53 ölkəsindən 264,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub. "Azexport.az" portalına iyul ayında daxil olan ixrac sifarişlərinin dəyəri iyun ayı ilə müqayisədə 15 faiz çox olub. Belə ki, "Azexport.az" portalına 2017-ci ilin yanvar ayında 48, fevral ayında 6,5, mart ayında 27, aprel ayında 29,9, may ayında 19, iyun ayında 62,3 və iyul ayında 71,6 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub.

"Azexport.az" portalına daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (19 faiz) ilə yanaşı Ukraynanın (7,8 faiz), Türkiyənin (7,4 faiz), ABŞ-ın (4,8 faiz) və Səudiyyə Ərəbistanının (4,8 faiz) adı var.

2017-ci ilin iyul ayında "Azexport.az" portalına ilk dəfə Qətər, Tanzaniya və Ekvador kimi ölkələrdən sifarişlər daxil olub. İyul ayında daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olur ki, qida sənayesi məhsulları başda olmaqla qeyri-neft sektorunda istehsal olunan müxtəlif məhsullara - fındıq ləpəsi, şərab, kosmetik vasitə, tütün, göbələk, uşaq iç geyimi, konservləşdirilmiş inək əti, quru süd, mebel, toyuq yumurtası, dondurulmuş toyuq əti, albalı şirəsi, ipək xalça, mahlıc, pambıq linti, alma, kərə yağı, avtomobil diaqnostika qurğusu, mühərrik yağı və sair tələbat böyükdür. Bu məhsullar içərisində mahlıca, pambıq lintinə, almaya, fındıq ləpəsinə, toyuq ətinə müxtəlif ölkələrdən daxil olan sifarişlərin hər birinin dəyəri ayrı-ayrılıqda bir milyon ABŞ dollarından çox olub.

Həmçinin "İxrac İcmalı"nın bu sayında pambıqçılığın inkişafı qeyri-neft sektoru üzrə ixracın artmasına töhfəsi, "Azexport.az" portalı vasitəsilə Azərbaycan mallarının "Amazon.com" portalında yerləşdirilməsi, Gömrük Bəyannamələrinin Rəqəmsal Ticarət Qovşağı vasitəsilə doldurulması, Eskrou xidmətindən istifadə imkanları, pambıq və tütün məhsullarının istehsalı, emalı və ixracı ilə məşğul olan şirkətlər barədə məlumatların "Azexport.az" portalında yerləşdirilməsi barədə də ətraflı məlumatlar əksini tapıb. "İxrac İcmalı"nın məqsədi sahibkarları ixracla bağlı maarifləndirməyə, yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmağa və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirməyə xidmət edir.

"İxrac İcmalı"ı ilə www.iqtisadiislahat.org saytının İcmallar bölümündə tanış olmaq mümkündür.

http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/avqust/ExportReview_2017-5.pdf

# Sahibkarlara 182 investisiya təşviqi sənədi verilib



İndiyədək 169 sahibkarlıq subyektinə 182 investisiya təşviqi sənədi təqdim edilib. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, investisiya təşviqi sənədi verilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılması, 11 mindən çox yeni iş yerlərinin açılması nəzərdə tutulur. İnvestisiya təşviqi sənədləri hesabına reallaşdırılacaq layihələrin 1-i Bakı şəhərində, 66-sı Bakıətrafı qəsəbələrdə və Abşeron rayonunda, 115-i isə digər iqtisadi rayonlarda həyata keçiriləcək. Verilmiş 182 investisiya təşviqi sənədinin 70-i kənd təsərrüfatı, 112-si isə sənayeyönümlü layihələrdir. Ən çox investisiya təşviqi sənədi intensiv bağçılıq, bostançılıq və çayçılıq, qida məhsullarının istehsalı, rezin və plastmas məmulatların istehsalı sahələrində reallaşdırılan layihələrə verilib.

Eyni zamanda, investisiya təşviqi sənədləri əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların güzəştli şərtlərlə idxalı üçün 169 sahibkarlıq subyektinə 744 təsdiqedici sənəd təqdim edilib. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyektləri tərəfindən əldə olunan ümumi güzəştin dəyəri 30,5 milyon ABŞ dollarıdır.

Qeyd edək ki, biznes mühitinin yaxşılaşdırılması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq, investisiya təşviqi mexanizmi yaradılıb. İnvestisiya təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə 7 il müddətinə mənfəət və ya gəlir vergisinin 50 faizdən azadolma, torpaq və əmlak vergisindən tam azadolma, layihə çərçivəsində xaricdən idxal olunan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azadolması aiddir.



# Toya gəlməsən, facebookda blok olunacaqsan, bax ha...

**İLHAM**

Toy kimi gözəl adət-ənənəmiz var. Bəlkə də, heç bir xalqda öz sevincini, şadlığını təmtəraqla qeyd edə biləcək belə bir adət yoxdur. Amma görünən odur ki, günlər ayları, aylar illəri əvəz etdikcə, bu ənənə öz formasın dəyişməyə başlayır. Bir zaman üç gün, üç gecə zurna-balaban sədaları ilə övladına toy edən valideynlər bu gün üç-dörd saatlıq məclislə tarixi ənənəni yola verir. Bu üç-dörd saatlıq toy zamanı nələr baş vermir ki... Toy ona görə edilmir ki, çırtma vurub, hopstop oynayasan və ya tanqo gedəsən. Toy şənlənmək, yeni ailə quranların şadlığına şərik olmaq deməkdir. Amma bizlər bəzən toyu o qədər cılızlaşdırırıq ki, bir növ şadlığımıza şıllaq atmış oluruq. Masa üzərində o qədər təamlar düzülür ki, bilmirsən hansından yeyib, hansından dadasan. Bəzən acgözlük edib hər nə gəldi yeyirsən ki, axırda da mədən pozulur, baş ağrısı qarın ağrısını əvəzləyir, ürək bulanmaları da öz yerində. Hətta xəstəxanalıq olanlar da olur. Adama deyən lazımdır, niyə acgözlük edirsən, dünyanın axırıdır? Bundan pisi də məclis sahibinin öz övladı üçün təmtəraqlı toy məclisi qurmaq üçün dəridən-qabıqdan çıxmasıdır. Kredit götürüb, gəlinə 5 min manatlıq brilyant alınır, İranın, Türkiyənin taxta-şalban sexində düzülüb-qoşulan və qiyməti 7-8 min manat olan mebel alınıb, oğlan evinin darısqal otağında quraşdırılır. Toy günü xərclər daha çox ola bilər. Buraya şadlıq evinə ödənilməli olan, 6-7 min manat, tamadaya və şou əhlinin tanınmış mütrüblərinə verilən 8-10 min manatı da əlavə etsək, toy sahibinə toy xərclərinin 35-40 min manata başa gəldiyini demək olar. Açığı, mənə ən çox təsir edən şou əhlinin ünlü mütrüblərinə ödənilən puldur. Bu məxluqatlar əllərində mikrofon attanıb-düşüb, şəstlə heç kəsin başa düşmədiyi mahnılar ifa edirlər. Gedəndə də, ən azı 8-10 min manat almaqla, toy sahibinə ağır zərbə vururlar. İnanın, toyda dost-tanışın şeir deyib, bildiyi mahnını oxumasına razı olaram, ancaq Aygünün, Nadirin, Röyanın, Rəqsanənin oxumağına razı olmaram. Amma nə işdisə, hələ ki, bu mütrüblər Azərbaycan toylarında meydan sulayırlar. Bu, nə üçündür, lazımdırmı? Bütün bunların yeni ailə quranların xoşbəxtliyinə, ailə səadətinə nə dəxli var ki? Bu sualı ailə quranlara və ya onların valideynlərinə versən, səni topa tutar, hörmətdən-izzətdən salar. Birbaşa deyər ki, eldən, qohum-qonşudan, bəyin, gəlinin iş yoldaşlarından ayıbdır. Necə ola bilər ki, qonşudan geri qalım. Vay o günə ki, toya çağırdığın qonaqların, bir qismi gəlməyə. Onda, həqiqətən də, toy sahibinin işləri fəna olacaq. Şadlıq evinin sahibinin nə vecinə, stol bəzənib, pulunu ödə. "Bəxtiyar" kinofilmindəki kontrabas çalan artist kimi "pulumu verin, pulumu" deyib, cumacaq, toy sahibinin üstünə. Verməsən, bəy girov götürüləcək. Azmı olub belə xoşagəlməz hadisələr. Toy sahibi borc-xərc edib, şadlıq evinə olan borcunu ödəyir, hirsinihikkəsini isə toya dəvət etdiyi, amma gəlməyən dost-tanışdan çıxacaq. Dərhal, vatcapda giley-güzar mesajı yazılacaq, ən pisi də odur ki, facebook-da dostluqdan çıxarılacaq. Hesablamaya görə, Azərbaycanda bir il ərzində facebook-da blok olunan 124 min insandan 83 mini toya dəvət olunub, ancaq gəlməyən insanlardır.

Təbii ki, toyun sıx və təmtəraqlı keçməsi ən çox şadlıq evlərinin sahiblərinin işinə yarayır. Yəni "qaz vurub, qazan doldurmaq" üçün şadlıq evləri ən yaxşı məkandır. Ən maraqlısı da odur ki, şadlıq saraylarının sahiblərinin əksəriyyəti Hacıdır. Hansı ki, bu insanların sözləri ilə əməlləri heç zaman üst-üstə düşmür. "Hacı"ların hansına kasıba, imkansıza əl tutduğu, yardım etdiyi faktı mövcud deyil. Əksinə, işçilərin hüquqları pozulur, haqları əllərindən alınır. Xüsusilə də, uşaq əməyi bu məkanlarda daha tez-tez istismar edilir. "Hacı"lar isə susurlar. Çünki onlara ucuz işçi qüvvəsi olan uşaq əməyindən istifadə etmək daha çox sərf edir. Haqq yox, divan yox, Əmək Müfəttişliyi də, şadlıq saraylarının heç pəncərəsindən boylana bilmir. Dünən marşrut avtobusunda üç yetkinlik yaşına çatmamış gəncin etdiyi söhbətə qulaq şahidi oldum. Uşaqlar "Həyat", "Oazis", "Ağ Saray", "Sarı gəlin", "Su sonası" şadlıq saraylarında ofisiant kimi işləmələrindən və hər dəfə də müxtəlif bəhanələrlə onlara verilməli olan 10 manatın 2-3 manatının kəsilməsindən giley-güzar edirdilər. O gün də, saytların birindən oxuyuram ki, Xırdalan şəhərindəki "Xəzinə Palace" şadlıq sarayında çalışan yetkinlik yaşına çatmamış bir uşaq-ofisiant namaz qıldığı üçün işdən azad olunub. Öyrənirəm ki, bu şadlıq sarayının sahibi hacıdır, guya din-iman əhlidir. "Hacı"nın sözçüsü olan administrator ağzından horra tökülə-tökülə iddia edir ki, "bura namaz qılmaq yeri deyil. Onu bir daha işə götürməyəcəyik". Nə isə...şadlıq evlərində qiymətlər baha, keyfiyyət isə yox dərəcəsindədir. Bəzi şadlıq evlərində mənşəyi bəlli olmayan ərzaqlardan qida hazırlanır, əl vurulmamış və ya yarımçıq qalmış qida növləri növbəti toylarda süfrəyə düzülür.

# Dağlıq Qarabağdan böyük erməni köçü başlayıb

## Azər Həsrət: "Beynəlxalq təşkilatların susqunluğu isə, dediyim kimi, ikili standart və qərəzli yanaşmadan qaynaqlanır"

***- Azər müəllim, hal-hazırda Dağlıq Qarabağdan böyük köç başlayır. Bu baxımdan, Sarkisyan rejiminin Dağlıq Qarabağda zorən erməniləri məskunlaşdırmaq siyasətinin artıq iflasa uğradığını demək olarmı?***

- Ermənistanın işğalı altındakı Dağlıq Qarabağdan köç həmişə davam edib. Sadəcə, indi bir qədər də intensivləşib. Bu da səbəbsiz deyil. Vaxt vardı ki, Ermənistanın hərbi üstünlüyü Qarabağ ermənilərində, az da olsa, ümidə səbəb olurdu. Amma aradan keçən illər ərzində Ermənistanın olduqca zəifləməsi və bunun fonunda Azərbaycanın qat-qat güclənməsi, ağlı başında olan Qarabağ ermənilərini düşünməyə və heç olmasa öz canlarını qurtarmağa sövq edir. Ona görə də, ilk fürsətdə Qarabağdan, onun ardınca da, Ermənistandan qaçıb canlarını qurtarırlar.

***- Dağlıq Qarabağ nəzarətsiz zona elan olunub. Orada terrorçular yetişdirilir və digər beynəlxalq miqyaslı qeyri-qanuni əməllər həyata keçirilir. Niyə beynəlxalq güclər bu faktı etiraf etmirlər və bununla bağlı ciddi tədbirlər görmürlər?***



Müsahibimiz Siyasi şərhçi Azər Həsrətdir

- Bunun səbəbi gün kimi aydındır. Azərbaycan illərdir beynəlxalq tribunalardan dünyaya bəyan edir ki, Dağlıq Qarabağ və ətrafındakı işğal zonası nəzarətsizdir, orada terrorçular məskən salır, narkotiklər becərilir. Yəni faktiki olaraq, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından dünyaya qarşı istifadə edilir. Təəssüflər olsun ki, bu çağırışlarımız qulaqardına vurulur. Səbəbsə çox sadədir: dünya ikili standartlarla idarə edilir. Azərbaycan kimi öz sözünü deyən, heç kimin qarşısında əyilməyən dövlətləri belə üsullarla küncə sıxmaq istəyirlər. Amma bir şeyi unudurlar ki, biz belə təzyiqlərə boyun əyməyəcəyik.

***- Fakt budur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistan qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq təşkilatlar isə susqunluq nümayiş etdirirlər. Səbəb nədir?***

- Ermənistan bu yolla işğal faktını yaddaşlardan silib bizim torpaqlarımızda daimi nəzarəti təmin etmək istəyir. Onlar düşünürlər ki, "nə sülh, nə müharibə" durumu uzanarsa, biz azərbaycanlılar öz torpaqlarımızı unudacağıq. Dünya da unudacaq. Amma yanılırlar. Çünki heç bir azərbaycanlı bir qarış torpağını belə unudan deyil və unutmur da. Beynəlxalq təşkilatların susqunluğu isə, dediyim kimi, ikili standart və qərəzli yanaşmadan qaynaqlanır.

**GÜLYANƏ**



## Kimlərsə AXCP və Müsavatın "uzun ömürlü" olduqlarını iddia edirsə...

**RƏFİQƏ**

Hər dəfə seçki kampanyası ərəfəsində müxalifət partiya rəhbərləri diqqət mərkəzinə cevrilmək üçün müxtəlif vasitələrdən istifadə edirlər. Bəzən dağıdıcı müxalifət xalq arasında nüfuz əldə edə bilmədikdə, qeyri-qanuni vasitələrlə bunu əvəzləmək istəyir. Məqsəd diqqəti özlərinə yönəltmək, mövcud olduğunu nümayiş etdirməkdir. Dağıdıcı müxalifət sosial baza baxımından çox zəifdir.

Yeri gəlmişkən, YAP İcra katibinin müavini Mübariz Qurbanlının hələ bir qədər əvvəl söylədiyi fikirlər kifayət qədər haqlı mövqedir və bütün dövrlərdə müxalifətə verilən real qiymətdir. M.Qurbanlı bildirib ki, müxalifət nümayəndələrinin etmək istədikləri Prezident İlham Əliyev xalq üçün, vətən üçün müsbət olan məsələləri çoxdan həll edib: "Müxalifət hansı məsələyə toxunmaq istəyirsə, biz, indiki iqtidar onu qabaqlamış oluruq. Məhz buna görə də, dağıdıcı müxalifətin hansısa bir formada sosial baza yığması mümkün deyil. Mütləq əksəriyyət indiki hakimiyyəti müdafiə edir".

Söz yox ki, belə olan halda, müxalifətin dağıdıcı qanadı pozuculuğa, dağıdıcılığa meyil göstərir. Azərbaycana qarşı müxtəlif illərdə müxtəlif basqılar olmuşdur və indi də var. Bunu dövlətlər səviyyəsində söyləyə bilmərik. Bəzi xarici dairələr var ki, Azərbaycanın liderliyini gözü götürmür, möhkəmlənməsini istəmir və bu, faktdır...

### Müxalifətin yalnız "liderləri"nin boş-boş vədləri qalıb...

Dəfələrlə şahidi olmuşuq ki, bir sıra ermənipərəst təşkilatlar Qərb qurumlarında Azərbaycanla bağlı haqsız qərarlar qəbul etdirməyə cəhdlər göstəriblər. Dağıdıcı müxalifətçilər bu qərarlara dəstək veriblər. Çünki çörəkləri daim düzlərinin üzərində olub. Yalançı müxalifətin haray-şivənlərindən vəcdə gələn bu dairələr özlərinin, iqtisadi və media imkanlarından istifadə edərək, "qara piar" kampaniyaları aparırlar. Bu "qara piar" kampaniyasından isə, bəzən Azərbaycanın daxilindəki müxalifət nümayəndələri böyük həvəslə alət kimi çıxış edir, vasitə rolunu oynayır. Azərbaycanın ictimai-siyasi həyatında hansısa təsir buraxacağına və ya tərəfdarlar qazanacağına hələ də ümid edən sözügedən müxalifət düşərgəsi və onun "liderləri" anlamağa məhkumdurlar ki, bu ölkədə Azərbaycanda siyasi səhnədə, yalnız Azərbaycanın dövlətçilik maraqlarından çıxış edən siyasi qüvvələr fəaliyyət göstərə bilərlər. Qeyrilərinin isə ömrü onsuz da uzun çəkmir. Əgər kimlərsə AXCP, Müsavat kimi partiyaların "uzun ömürlü" siyasi təşkilat olduqlarını iddia edirlərsə, təməlindən yanılırlar. Çünki bu partiyaların vaxtı çoxdan tükənib və onların, yalnız "liderləri" beş-on nəfərlik elektoratları, eyni zamanda, boş-boş vədləri qalıb...

# Baş Prokurorluq və Daxili İşlər Nazirliyi Lerik rayonunda törədilmiş ağır cinayətlə bağlı məlumat yayıb



Lerik rayonunda törədilmiş ağır cinayətin üstü polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində "isti izlər"lə açılıb.

Respublika Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında qeyd edilib ki, cari il avqustun 22-də saat 05.20-də rayonun Vivəzəmin kənd sakini Mehdi Mirzəzadə Daxili İşlər Nazirliyinin "102-Zəng Xidməti" Mərkəzinə zəng edərək atası Elman Hüseynovun yaşadıqları evi yandırdığını, habelə anası Şükufəni və bacısı Süsəni öldürmək istədiyini bildirib. Məlumatla əlaqədar rayon prokurorluğunun və polis şöbəsinin əməkdaşları dərhal hadisə yerinə gəlib və göstərilən ünvanda yangının baş verməsi müəyyən edilib. Fövqəladə Hallar Nazirliyinin Regional Mərkəzinin yanğınsöndürmə xidmətinin əməkdaşları təxirəsalınmadan hadisə yerinə çağırılaraq yanğının söndürülməsinə cəlb olunublar. Həyata keçirilmiş kompleks tədbirlərlə yanğının qısa müddətdə söndürülməsi təmin edilib, bu zaman ümumi sahəsi 137 kvadratmetr olan birmərtəbəli, üçotaqlı evin tamamilə yanması məlum olub.

Yanğın söndürüldükdən sonra mənzildən ev sahibi Elman Hüseynovun, onun həyat yoldaşı Şükufənin və qızı Süsənin yanaraq tanınmaz hala düşmüş meyitləri aşkar edilib. Məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib, maddi sübutlar götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. İlkin araşdırma zamanı Mehdi Mirzəzadə izahatında həmin gün səhər radələrində atasının bıçaqla anasını və bacısını vurduğunu, Elman Hüseynovun ona da xəsarət yetirməyə cəhd göstərsə də, həyətə qaçdığını, sonda isə evi yandırmaqla atasının intihar etdiyini göstərib.

Məhkəmə-tibb ekspertizası tərəfindən meyitlərin müayinəsi zamanı Elman Hüseynovun boyun və sağ kürək nahiyələrində deşilmiş-kəsilmiş xəsarətlərin olması müəyyənləşdirilib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 125-ci (özünü öldürmə həddinə çatdırma) və 186.2.2-ci (əmlakı qəsdən yandırmaqla məhv etmə və ya zədələmə) maddələri ilə cinayət işi başlanılıb.

Ekspertizanın rəyi ilə M.Mirzəzadənin izahatı arasında uyğunsuzluq yarandığından, eləcə də ailənin üç üzvünün öldürülərək evin yandırılması cinayətini törətməsində əsaslı şübhələr olduğundan sonuncu polis tərəfindən şübhəli şəxs qismində saxlanılıb.

Aparılmış intensiv istintaq-əməliyyat tədbirləri nəticəsində müəyyən edilib ki, avqustun 21-də günorta və axşam radələrində Elman Hüseynov ilə həyat yoldaşı arasında ailə münaqişəsi zəminində mübahisə baş verib. Avqustun 22-nə keçən gecə səsə oyanmış Süsən valideynlərinin yatdığı otağa daxil olduqda anası Şükufəni divanda huşsuz vəziyyətdə görüb. Gecə qəfil yaranmış hay-küyün səbəbini öyrənmək üçün yataq otağına daxil olan M.Mirzəzadə bacısının atası tərəfindən öldürülməsinin şahidi olub, eyni aqibətlə üzləşməmək üçün bıçaqla E.Hüseynovun boyun və sağ kürək nahiyəsinə bir neçə zərbə endirib.

Daha sonra cinayətin izini itirmək məqsədilə o, yataq otağındakı lampanın neftini həyatlarını itirmiş ailə üzvlərinin üzərlərinə, evin digər hissələrinə tökərək mənzili yandırıb. M.Mirzəzadə ifadəsində atasını qətlə yetirdiyini, sonra isə evdə yanğın törətdiyini etiraf edib. O, cinayətin aləti olan bıçağı da maddi sübut kimi istintaqa təqdim edib. Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Yəməndə otelə hava hücumu nəticəsində 35 nəfər ölüb

Yəmənin paytaxtı Səna şəhərindəki otellərdən birinə edilən hava hücumu nəticəsində 35 nəfər həlak olub, yüzlərlə insan yaralanıb. Bu barədə CNN telekanalı məlumat yayıb. Qeyd edək ki, 2014-cü ildən ölkədə davam edən vətəndaş müharibəsi təqribən 10 min nəferin həyatına son qoyub, milyonlarla insan evini tərk etmək məcburiyyətində qalıb.



# Mübariz Əhmədoğlu: "Ermənistan tərəfi ABŞ Dövlət Departamentinin rəsmi sənədini saxtalaşdırıb"



Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu ABŞ Dövlət Departamentinin 2016-cı ildə dünyada dini azadlıqların vəziyyəti ilə bağlı ənənəvi hesabatına dair şərhində bildirib ki, Ermənistan tərəfi ABŞ Dövlət Departamentinin rəsmi sənədini saxtalaşdırıb. Onun fikrincə, hesabatın "Ermənistan" bölməsində bu ölkədəki dini pozuntular daha kəskin şəkildə qeyd edilir. "Amma Ermənistan mətbuatı ABŞ Dövlət Departamentinin yaydığı hesabata "əlavələr" etməklə, guya Ermənistanda qonşularına nisbətən dini azadlıqların az pozulduğunu ABŞ-ın rəsmi sənədində göstərildiyini bildirdilər"-deyə bildirən politoloq bu pozuntuları aşağıdakı məqamlara əsaslandıraraq, bir neçə mərhələyə bölüb:

1.Əgər Ermənistan "qonşu" dedikdə, Azərbaycan və Türkiyəni nəzərdə tutursa, bu iki dövlətdə dini strukturlar heç xüsusi imtiyaza və ya səlahiyyətə malik deyil. Ermənistanda erməni Apostol kilsəsi prioritet mövqedədir və bu konstitusiya ilə təsbit olunub. Dövlət qurumları erməni kilsəsinin prioritet mövqeyinin reallaşmasına daim xüsusi diqqət ayırırlar.

2. Azərbaycanda və Türkiyədə dinlə məşğul olan dövlət qurumları var. Ermənistanda belə bir qurum yoxdur. Erməni Apostol kilsəsi buna imkan verməz. Gürcüstanda da patriarxlıq güclü olsa da, artıq hökumət dini qurum təsis etmişdir.

3. Reallıqda ABŞ Dövlət Departamentinin 2016-cı il hesabatının "Ermənistan" bölümündə "qonşu ölkələrlə müqayisədə" termini yoxdur. 2014-cü il hesabatında belə bir termin olub. Bu, ABŞ-ın Ermənistandakı o zamankı səfiri, indi ABŞ Dövlət Katibinin köməkçisi vəzifəsini icra edən C.Heffernin əməli idi. Ermənistandakı demokratik mətbuat və din azadlığı sahəsindəki biabırçılığı ört-basdır etmək üçün bu üsula əl atmışdı.

Heç də hər ekspert əziyyət çəkib mövzunu axıradək öyrənmək istəmir. Heffernin və Ermənistan rəhbərliyinin belə saxtakarlıqlar hazırlayarkən, əsas hesablamaları da buna əsaslanırdı. Beləliklə, çox dəqiq şəkildə bildirmək olar ki, Ermənistan tərəfi ABŞ Dövlət Departamentinin rəsmi sənədini saxtalaşdırıb. Amma bu, birinci hal deyil. Prezident S.Sarkisyan və Xİ naziri E.Nalbandyan dəfələrlə bildiriblər ki, Ermənistanın mövqeyi ATƏT MQ-nin mövqeyi ilə eynidir. Guya Azərbaycanın mövqeyi fərqlidir. Amerikalı həmsədr yaxınlarda hərtərəfli sülh sazişinin dörd maddəsini açıqladı: Ərazilər Azərbaycana qaytarılır; Azərbaycanın bütün qaçqın və məcburi köçkünləri ilkin yaşayış yerlərinə qayıdır; Dağlıq Qarabağın statusu müəyyən olunur və regiona sülhməramlılar gətirilir. ATƏT MQ-nin dediyi budur. Ermənistan əgər bununla razıdırsa, o zaman istənilən anda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini əldə etmək olar. O cümlədən, digər sahələrdə də Ermənistan rəhbərliyinin belə saxtakarlıqları var.

Beləliklə, dini azadlıqların təmini sahəsində də Azərbaycandakı vəziyyətin Ermənistanla müqayisədə qat-qat yaxşı olduğunu deyən M.Əhmədoğlu digər bir arqumenti, eləcə də, faktı önə sürüb. SİTAT: "Ermənistan özündə və işğal etdiyi Dağlıq Qarabağda islam terrorizmini çox real hesab edir və bunu Azərbaycana qarşı arqument kimi istifadə edir. Azərbaycanda heç vaxt islam terrorizmi real təhlükə olmayıb və yaxın gələcəkdə də mümkün deyil. Uzaq müddətə də dair belə bir fikir söyləmək mümkündür".

Politoloq ermənilərin Gümrüdə rus hərbçisini terror edən erməninin Yunanıstanda islamçıların təsirinə düşmüş erməni olduğu iddialarını da xatırladıb və bununla Ermənistanda islamofobiyanın mövcud olduğunu bildirib.

**"Azərbaycanda dini-siyasi radikallara qarşı aparılan mübarizə dövlət sabitliyini təmin etmək kontekstində qəbul edilə bilər"**

Azərbaycanda dini radikalizmin olmadığını deyən Mübariz Əhmədoğluna görə, sadəcə, siyasi məqsədlər üçün radikallaşmış dini qrup mövcuddur. Lakin göstərilən səylər nəticəsində, həmin qrup da zərərsizləşdirilib: "Hakimiyyətin apardığı siyasət nəticəsində, bu təbəqə də demək olar ki, tamamilə neytrallaşıb. Yeri gəlmişkən, Ermənistan özü də Azərbaycanda həmin radikal qrupun mövcudluğu istiqamətində müəyyən səylərə malikdir. Azərbaycan tarixi multikultral və tolerantlıq ənənələrinə malik dövlətdir. Azərbaycanda dini-siyasi radikallara qarşı aparılan mübarizə dövlətin sabitliyini təmin etmək kontekstində qəbul edilə bilər".

Siyasi analitik sonda vurğulayıb ki, dini azadlıqların təmini mövzusunda Azərbaycanın ictimai-siyasi mühitində vəziyyət konsensusa yaxındır: "Bu kontekstdən ABŞ Dövlət Departamentinin Dini Qurumlarla İş üzə Dövlət Komitəsi ilə əməkdaşlığı qarşılıqlı faydalı ola bilər. Ümumiyyətlə, elə dəyərlər var ki, Ermənistana yaddır. Hələ bu günədək Ermənistan müstəqil siyasətin açılığını və ya şirinliyini dadmayıb".

*Rövşən NURƏDDİNOĞLU*

# Tələbələr təhsil haqqını yalnız nağdsız qaydada ödəməlidir



Ali təhsil müəssisəsinin tələbəsi ödənişli əsaslarla təhsil alırsa, təhsil haqqını nağdsız qaydada ödəyə bilərmi? Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə əsasən, nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (ödəniş kartları, ödəniş tapşırığı və sair) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq), ödəniş terminalları ilə və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur. Həmin qanunun 3.4.8-ci maddəsində isə göstərilir ki, təhsil haqqının ödənilməsi bu qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq, yalnız nağdsız qaydada həyata keçirilməlidir.

## Bakıda və Abşeron yarımadasında tozun miqdarı sanitar normadan 40 faiz çox olub



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Bakıda və Abşeron yarımadasında müşahidə olunan toz-dumanı ilə bağlı operativ iş rejiminə keçərək, hər üç saatdan bir atmosfer havasında müşahidələr aparır. Departamentdən AZƏRTAC-a bildirilib ki, havanın keyfiyyətini ölçən avtomatik və stasionar monitorinq stansiyalarından alınan məlumata görə avqustun 23-ü saat 15:00-də Bakıda və Abşeron yarımadasında tozun miqdarının bir qədər də artaraq sanitar normadan 40 faiz yuxarı olduğu qeydə alınıb. Xatırladaq ki, saat 12:00 də bu göstərici 32 faiz təşkil edib.

# UNİCEF-dən 2 yaşlı Zəhranın ermənilər tərəfindən öldürülməsinə münasibət

"Heç bir icma, heç bir ailə silahlı münaqişə nəticəsində uşaq itkisindən əziyyət çəkməməlidir". Ombudsman Aparatından SİA-ya verilən məlumata görə, bu barədə BMT-nin Uşaq Fondunun (UNİCEF) icraçı direktoru Entoni Leykin Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin iyulun 4-də 2 yaşlı Zəhra Quliyevanın Ermənistan Silahlı Qüvvələrinin açdığı atəş nəticəsində həlak olmasına dair bəyanatına cavab olaraq göndərdiyi məktubda deyilir.



Məktubda bildirilir ki, BMT baş katibinin mart ayında qeyd etdiyi kimi, BMT bütün tərəfləri atəşkəs sazişini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə, onları Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün qətiyyət nümayiş etdirməyə səsləyən çağırışı dəstəkləyir: "UNİCEF bu cür həll yolunun əldə edilməsi üçün səylərin davam etdiyi bir vaxtda münaqişənin təsirinə məruz qalan bütün uşaqların hər cür müdafiə ilə təmin olunacağına ümid edir".

Məktubda UNİCEF-in Azərbaycan nümayəndəliyinin uşaq və gənclərə ən yaxşı və ən təhlükəsiz təşəbbüslər istiqamətində kömək göstərməyə davam edəcəyi diqqətə çatdırılıb. Qeyd edək ki, bu il iyulun 4-də saat 20:40 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndi 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulub. Ermənistan tərəfinin bu təxribatı nəticəsində kənd sakinləri - 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və onun nəvəsi, 2015-ci il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı həlak olublar. 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz İltifat qızı isə yaralanıb.

# Politoloq: "Türkiyə heç zaman sərhədlərin açılmasına razı olmaz"

Avrasiya İqtisadi İttifaqında işğalçı Ermənistan da təmsil olunduğundan düşmən ölkə hesab edir ki, Türkiyə sözgedən ittifaqla gömrük sazişini bağlasa, sərhədlər açıla bilər. Düşmən ölkənin fikrincə, Türkiyənin AİB-yə üzv olması üçün Ermənistanın da səsi ona lazım olacaq. Hər kəsə məlumdur ki, Rusiya AİB-yə hansı ölkənin qəbul edilməsini özü həll edir və belə olan halda, Ermənistanın hər hansı səsvermə hüququ heçə enmiş olur". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.



Politoloqun sözlərinə görə, Ermənistanın sərhədlə bağlı yaydığı informasiyalar növbəti təxribatdır və onun reallaşması mümkün deyil: " Türkiyə heç bir zaman Azərbaycanın ziyanına olan və xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin həllində problem yaradacaq məsələlərə yol verməz. Türkiyə hökuməti bu məsələdə Azərbaycanın mövqeyini dəstəklədiklərini dəfələrlə bəyan ediblər. Bu baxımdan düşünürəm ki, Ermənistan tərəfindən qaldırılan məsələ sadəcə hay-küy yaratmağa yönəlib". Q. Hüseynli əlavə edib ki, Türkiyə Ermənistanın da üzv olduğu Avrasiya İqtisadi İttifaqı ilə gömrük sazişi bağlasa təqdirdə sərhədlərin açılması məsələsi gündəmə gələ bilər, amma reallaşa bilməz.: "Çünki, bu, qardaş Türkiyənin tutduğu mövqedir və heç zaman buna razı olmaz. Geosiyasi maraqların fövqündə olan Azərbaycan-Türkiyə münasibətlərin xarakterini yalnız iqtisadi-siyasi əlaqələrin yüksək səviyyədə olması müəyyən etmir, xalqlarımızı ortaq din, mədəniyyət, dil və əsassız iddialara qarşı müştərək mübarizə tarixi birləşdirir".

# Azərbaycanın müdafiə nazirinin bəyanatı Ermənistanı qorxu içində saxlayır

## *Erməni analitiklərini daha çox qorxudan növbəti amil Azərbaycanın S-500 "Prometey" və "Antey-4000" silahlarının potensial alıcısına çevrilməsidir*

***Ermənistanda yeni müharibə qorxusu istər ictimai rəyi, istərə də mövcud rejimi ciddi şəkildə vahimədə saxlamaqdadır. Xüsusilə son dövrlərdə Azərbaycan-Rusiya yaxınlaşması və bu yaxınlaşma çərçivəsində müxtəlif istiqamətlərdə nümayiş etdirilən əməkdaşlıq işğalçı ölkəni müharibə xofundan ayıra bilmir. "Hansı ekspertlər yeni Ermənistan-Azərbaycan müharibəsi barədə proqnozlar irəli sürürlərsə, onlar böyük hesabla haqlıdırlar". Bu barədə Ermənistanın "1in.am" saytının rus dili bölməsinin analitik yazarı Sarqis Artsruni siyasi təhlilində qeyd edib (http://ru.1in.am/1197778.html). Onun fikrincə, bu proqnozların əsasında Azərbaycanın silahlarla təchiz edilməsidir. S.Artsruniyə görə, sülhə hazırlaşan, yaxud sülhün bərqərar olmasını hədəfləyən ölkə bu kimi məsələlərdə mövcud miqdarda hücum silahlarına ehtiyac duymazdı.***

### Sarqis Artsruni: "Azərbaycan mövcud sistemləri almaq məqsədindədir ki, bu məqsəd ona lokal hərbi əməliyyatlar aparması ilə yanaşı, böyükmiqyaslı müharibədə iştirakına da imkan verir"

Bu arada erməni analitik xatırladır ki, bu günlərdə Rusiyada "Armiya-2017" ("Ordu-2017"-R.N.) Sərgi-Forumunun açılmasına işarə edərək xatırladır ki, həmin sərgidə xarici hərbi mütəxəssislər tərəfindən ilk dəfə ən müasir zenit-raket sistemləri (ZRS) olan S-500 "Prometey" və "Antey-4000" silahları nümayiş olunacaq. S.Artsruni, bu məqamda rusiyalı ekspertlərə istinad edərək, qeyd edir ki, ən mümkün alıcılar sırasına Azərbaycan daxil olmaqla Çin, Hindistan, Vyetnam, Əlcəzair, Qazaxıstan, Türkiyə, Misir, İran, İrak, o cümlədən, Fars körfəzinin monarx dövlətləri - Küveyt, Səudiyyə Ərəbistanı, Qətər də var. "Belə ki, artıq 2019-cu ildə Rusiya silahlı qüvvələrində istifadə ediləcək S-500 "Prometey" və "Antey-4000" ZRS-ləri potensial alıcılara bağlı sərgidə təqdim olunacaq"-deyə yazan S.Artsruni əlavə edib ki, hərbi ekspertlər sözügedən silahların ən məşhur mişenləri, o cümlədən, ABŞ-ın istehsalı olan pilotsuz uçan aparatları məhv etmək gücündədir.

Bu faktorları əsas gətirən erməni analitiki, hesab edir ki, əldə edilmiş informasiyalar bir neçə mühüm nəticələrə gətirib-çıxarır. SİTAT: "Azərbaycan mövcud sistemləri almaq məqsədindədir ki, bu məqsəd ona lokal hərbi əməliyyatlar aparması ilə yanaşı, böyükiqyaslı müharibədə iştirakına da imkan verir".

Lakin Artsruni digər tərəfdən, özünətəskinlik verməyi də unutmayaraq, Bakının uzunmüddətli qarşıdurmaya hazırlaşdığını qeyd edir və buna əsas kimi, adıçəkilən silahların Rusiyanın hərbi arsenalına yalnız bir neçə ildən sonra daxil olunacağını göstərir. Yəni Azərbaycanın bu silahları almaq niyyətində olmasına baxmayaraq, Qarabağ münaqişəsinin bir neçə il də uzadılması ehtimalına işarə edir. Ancaq unudur ki, əslində, Azərbaycan Ordusu öz gücünü ötən ilin aprelində bu silahlar olmadan da göstərdi və hətta əlində olan ən müasir silahların 80-90 faizini aprel müharibəsində istifadə etmədi. Nəticədə, 2000 ha, ərazi işğaldan azad olundu. Görünür, S.Artsruni bu məqamı tamamilə unudub, ya da xatırlamaq gücündə deyil.



### "Bu, öz növbəsində, Rusiya-Azərbaycan arasında yeni mərhələli və yeni keyfiyyətli hərbi-texniki əməkdaşlıqdan xəbər verir"

Buna baxmayaraq, erməni siyasi analitiki bəzi erməni ekspertlərindən fərqli olaraq, hesab etmir ki, Ermənistanda anti-Rusiya ab-havasının mövcudluğu Moskvanı narahat edir və Rusiya da, bu səbəbdən, Azərbaycanla mövcud hərbi-texniki əməkdaşlığına son qoyacaq: "Reallıq tamamilə başqadır və bu reallıq belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan Rusiyanın müasir silahlarını alan ölkələr arasında ən mümkün alıcı rolunu qoruyub-saxlayır. Bu isə, öz növbəsində, Rusiya-Azərbaycan arasında yeni mərhələli və yeni keyfiyyətli hərbi-texniki əməkdaşlıqdan xəbər verir. Bütün bunlar isə, Rusiyanın Ermənistan qarşısında müttəfiqlik öhdəliklərinin olması fonunda baş verir. Eyni zamanda, Rusiya Qarabağ münaqişəsinin həlli məsələsində həmsədr rolunu oynayır".

Sonda analitik utopik xəyallara dalaraq, regionda militarizasiya (?-R.N.) həddinin yüksəlməsi baxımından, Ermənistanın xarici siyasətinin, eyni zamanda, diplomatiyasının və s. əhəmiyyətli amillərinin dəyişdirilməli olduğunu yazır və bütün bunların Azərbaycanı beynəlxalq aləmdən təcridi üçün vacibliyini qeyd edir. Lakin bununla yanaşı, xam xəyallarının gerçəkləşməsi üçün Ermənistan hakimiyyətini yeni dövlət qurulması istiqamətində mühüm addımlar atmağa səsləyir.

Erməni analitiki istər-istəməz təmsil olunduğu ölkənin mövqeyindən çıxış edir, ancaq ironik nüans budur ki, get-gedə müstəqilliyini və suverenliyini daha çox itirməyə başlayan Ermənistanın işğalçılıq siyasəti ucbatından mövcud vəziyyətə sürüklənməsi etirafını etmir.

### Aram Amatuni: "Belə bir vəziyyət Ermənistanın, xüsusilə diqqətində olmalıdır"

Adıçəkilən sayta çıxış edən digər erməni analitiki Aram Amatuni də Rusiyada açılan hərbi sərgi barədə bənzər fikirlər irəli sürsə də, həmkarından fərqli olaraq, Azərbaycanla Ermənistanın hərbi balansı məsələsini önə çəkib (http://ru.1in.am/1197824.html).

Məsələn, Amatuni bu günə qədər hansı ölkənin olduğunu açıqlanmayan "İskəndər" raketlərinin Ermənistan ərazisindəki mövcudluğunu "əsas" gətirərək, bu istiqamətdəki hərbi balans üstünlüyünün guya Ermənistanda olduğunu bildirir, lakin sonrakı məqamda Bakının ermənilər üzərində böyük, ya da orta həddə üstün hərbi arsenala malik olduğunu da etiraf edir. Bununla yanaşı, aprel müharibəsindən sonra erməni mövqelərinin möhkəmləndirildiyini iddia edən erməni analitik yeni müharibənin başlaya biləcəyini də istisna etmir.

Ümumiyyətlə, nala-mıxa döyəcləmək üsulu ilə baş verən prosesləri şərh edən Aram Amatuni bir tərəfdən, "İskəndər" sistemlərini nümunə göstərərək, guya Ermənistanın Azərbaycan üzərində üstünlüyə malik olduğunu qeyd edir, digər tərəfdən, onu narahat edən başqa bir reallığı tələsla yazır. Bu reallıq isə, Azərbaycanın müdafiə naziri Zakir Həsənovun bir neçə gün öncə, Rusiyanın RİA "Novosti" rəsmi informasiya agentliyinə verdiyi müsahibəsidir. S-500-lərin Azərbaycan tərəfindən alınması ehtimalı və müdafiə nazirimizin Bakının "İskəndər" raketlərini vura bilmək gücünə malik olması barədə fikirlərinin ardınca erməni analitiki heyrət edərək yazır ki, Rusiya tərəfi azərbaycanlı hərbi nazirin açıqlamasına sakit yanaşıb. "Belə bir vəziyyət Ermənistanın, xüsusilə, diqqətində olmalıdır"-qeyd edən A.Amatuni, həmçinin yazır ki, qısa zamanda onun ölkəsi aprel müharibəsindən də betər ciddi risklər qarşısında qalmalı olacaq.

Bununla da, bir daha əmin olmaq mümkündür ki, regionda baş verən proseslər fonunda Ermənistan öz zəifliyini, məhvolma təhlükəsi ilə üz-üzə qaldığını dərk edir, ancaq işğalçılıq faktoru ilə yanaşı, mehriban qonşuluq prinsiplərindən də uzaq olması amili gec-tez təcavüzkar ölkənin Azərbaycan qarşısında diz çökməsi prosesini sürətləndirmiş olur.

***Rövşən NURƏDDİNOĞLU***

# İsa Qəmbər yenidən meydana girmək istəsə də...

*Onun qarşısını ciddi şəkildə alacaq digər müxalifət "liderləri" mövcuddur*



***Bütün srçkilərdə ardıcıl şəkildə uğursuzluq zolağından çıxmağa müvəffəq ola bilməyən dağıdıcı müxalifət "liderləri" siyasi səhnəni tərk etmək əvəzinə, yenidən özlərini "siyasi güc" olaraq ictimai rəyin diqqətinə sırımağa çalışırlar. Hətta onlar arasında elələri də var ki, partiya sədrliyindən istefa vermələrinə rəğmən, hələ də özlərini "siyasətçi" hesab edirlər. Onlardan biri də vaxtilə sədri olduğu Müsavat partiyasında saxta qurultay keçirməklə yanaşı, saxta başqanlıq seçkiləri keçirən, öz adamını kreslosunda oturdan, nəticədə, müsavatçıların kütləvi etiraz və istefalarına bais olan İsa Qəmbərdir. Maraqlısı da budur ki, İ.Qəmbər partiya başqanlığından getdikdən sonra "Milli-Strateji Düşüncə Mərkəzi" adlı ictimai təşkilat yaratdı və bu vasitə ilə də siyasi gündmədən silinməməsi üçün müəyyən dirənişlər göstərdi.***

Bu, həm də onu göstərirdi ki, siyasi arenada olduğu müddətdə, partiyasına heç bir ciddi uğur qazandıra bilməyən İ.Qəmbər məcburi, yəni istəməyərək verdiyi istefası ilə siyasi cəhətdən də, uğursuz olduğunu etiraf etmişdi. Onun həmin istefadan sonra hər hansı bir seçkiyə qatılması isə, siyasət faktorunda qeyri-ciddilik mənasını daşıyır. Amma buna baxmayaraq, o, indi də ictimai qurumun sədri qismində 2018-ci il seçkilərinə qatılacağını iddia edir. Üstəlik müsavatçıların ona dəstək verəcəklərini də ehtimal edir.

### Bu da mümkün deyil...

Başqa tərəfdən, növbəti belə bir sual yaranır ki, əcəba, İ.Qəmbər daha öncəki seçkilərdə lazım olan miqdarda imzaları zor-bəla ilə toplayırdısa, həmin vaxtlarda hazırda ayrı-ayrı təşkilatlarda təmsil olunan sabiq müsavatçılar da daxil olmaqla, ona dəstək göstərirdilərsə, bəs indi necə olacaq? Axı bildiyimiz kimi Müsavatda Arif Hacılı qrupundan və bir neçə yüz nəfərdən başqa kimsələr qalmayıb. Bu zaman İ.Qəmbər nəyə ümid edir, xarici dairələrəmi? Bu da mümkün deyil. Çünki o, heç vaxt ona ağalıq edən erməni lobbisinin təsiri altında olan təşkilatların verdikləri əmrləri doğru-dürüst qaydada yerinə yetirə bilməyib. Əksinə, aldığı qrantları öz yaxınları ilə yeyib...

Ancaq kiçik detal kimi görünməsinə baxmayaraq, Müsavatın "təşəbbüsü" ilə yaradıldığı deyilən "MSDM"-i heç bu partiyanın rəhbər strukturlarında təmsil edilən adamları da ciddi olaraq qəbul etmirlər. Misal üçün, partiyanın mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlı belə deyib: "MSDM" ayrıca müstəqil qurumdur. Mərkəzin Müsavat partiyası ilə yeganə bağlılığı onun sədrinin keçmiş başqanımız İsa Qəmbərin olmasıdır".

Yəni onun sözlərinə görə, "MSDM"-in hazırda partiya ilə heç bir bağlılığı və fəaliyyətinə təsiri yoxdur: "Mərkəz öz fəaliyyəti ilə bağlı Müsavat partiyası ilə məsləhətləşmir. O qurumun həftədə bir dəfə yığıncağı keçirilir. Müxtəlif mövzuda müzakirələr aparılır. Yəni fəaliyyətləri səngiməyib, ictimaiyyətə mərkəzin həyata keçirdiyi işlərlə bağlı məlumatlar da verirlər".

Göründüyü kimi, fakt budur ki, hətta İ.Qəmbərin arxalandığı müsavatçılar belə, onun qurumunu ciddi siyasi-ictimai birlik kimi qəbul etmirlər.

Bütün bunları nəzərə alarsaq, deyə bilərik ki, ümumiyyətlə, İ.Qəmbərin, nəinki prezident, heç bələdiyyə üzvü seçilmək üçün imkanı yoxdur və bu imkan sıfıra bərabərdir. Çünki ötən müddətdə və daha əvvəllər də İ.Qəmbər və onun partiyası o qədər gözdən düşüb ki, heç kim onlara dəstək verməz. Yeri gəlmişkən, İ.Qəmbərin başqanlığı zamanı onun müşaviri olmuş Səxavət Əlisoy da maraqlı məqamlara toxunaraq sual edib: "Əslində, Müsavat partiyasının sonuncu qurultayında qərar qəbul edildi ki, keçmiş başqan İsa Qəmbər 2018-ci ildə prezidentliyə namizəd olacaq. Belə bir qərarın verilməsi ancaq yeni seçilmiş başqan A.Hacılıya hörmətsizlikdən, təhqirdən başqa bir şey deyil. Sual olunur ki, bəs onda A.Hacılı kimdir və onun partiyanın fəaliyyətində rolu nə olacaq? Bütün bunlar, onu deməyə əsas verir ki, İ.Qəmbər bu cür taktiki gedişlərlə özünün "əhəmiyyətli siyasətçi" imicini göstərmək istəyir və o, siyasətdə hələ tükənmədiyini nümayiş etdirməyi düşünür. 24 ildir ki, heç bir uğur qazana bilməyən Qəmbər bundan sonra ne edəcək? Adi qurultayı keçirə bilməyən Qəmbər hansı üzlə hələ də prezidentliyə nazmizəd olmaq iddiasına düşür? Əslində, bu sualları artırmaq da olar".

Məhz bu amilləri nəzərə alaraq, deyə bilərik ki, İ.Qəmbərin namizəd olması radikal müxalifətə heç bir uğur gətirməyəcək, necə ki, indiyə qədər uğur olmayıb. Həmçinin, onun yolunu kəsməyə hazır olanlar da unudulmamalıdır - Əli Kərimli, Cəmil Həsənli, İqbal Ağazadə, Pənah Hüseyn və s. adları çəkilən və çəkilməyən bütün müxalifət "liderləri" İ.Qəmbərin ortalığa çıxması ilə onu hədəfə alacaqlar.

**Rövşən RƏSULOV**

# Ölkə ərazisində havanın temperaturu 41 dərəcəyədək yüksələcək

Azərbaycanda avqustun 24-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 22-25°, gündüz 32-37° isti, Bakıda gecə 23-25°, gündüz 35-37° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 45-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 36-41° isti, dağlarda gecə 14-19°, gündüz 25-30° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 36-41° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 25-30° isti olacağı gözlənilir.



Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 33-38° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti, dağlarda gecə 13-18°, gündüz 26-31° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 36-41° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-24°, gündüz 33-38° isti, dağlarda gecə 15-20°, gündüz 25-30° isti olacağı gözlənilir.

## Əfqanıstanda törədilmiş terror aktı nəticəsində 40-dan çox insan yaralanıb



Əfqanıstanın cənubunda yerləşən Laşkarqax şəhərində törədilmiş terror aktı nəticəsində 40 nəfərdən çox insan yaralanıb. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, terrorçu-kamikadze minalanmış maşını polis binasının önündə partladıb. Terror aktına görə məsuliyyəti "Taliban" qruplaşması öz üzərinə götürüb.

## İlk Belarus elektromobili yaradılıb

Belaruslular özlərinin ilk elektromobilini yaradıblar. AZƏRTAC BELTA agentliyinə istinadla xəbər verir ki, maşını Milli Elmlər Akademiyası (MEA) təqdim edib. MEA-nın Birləşmiş Maşınqayırma İnstitutunun baş direktoru Sergey Poddubko bildirib ki, Belarus alimləri bir il əvvəl bu ideya ilə MEA-nın rəyasət heyətinin sədrinə Vladimir Qusakova müraciət ediblər və sədr bu ideyanı dəstəkləyib. Elektromobilin mühərrikinin gücü 80 at gücü və yaxud təxminən 60 kilovat, maksimal sürəti saatda 110 kilometrdir. Maşının qiyməti açıqlanmır. Eksperimental nümunə "Geelysc7" Çin maşınlarının bazasında yaradılıb.

## Qətər ilə Türkiyə arasında ilk birbaşa dəniz xətti açılıb

Qətər ilə Türkiyə arasında ilk birbaşa dəniz xətti açılıb. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Qətər ilə İzmir limanı arasında 5 min tondan çox yük daşımaları həyata keçiriləcək. Ayda bir dəfə Türkiyədən yola çıxacaq gəmi 11 günə Qətərə çatacaq. Birbaşa dəniz xətti həm Türkiyə-Qətər iqtisadi əməkdaşlığına, həm də limanlar arasında əlaqələrin gücləndirilməsinə müsbət təsir edəcək.

## Əvvəllər məhkum olunmuş şəxsdən altı kiloqramdan çox marixuana götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik maddələrin qanunsuz satışına və dövriyyəsinə qarşı mübarizəni uğurla davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə Ağdaş rayon sakini, əvvəllər məhkum olunmuş Kamran Məmmədovdan 6 kiloqram 350 qram marixuana götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Yasamal rayonunda baş verən yanğın zamanı bir nəfər həlak olub

Fövqəladə Hallar Nazirliyi (FHN) paytaxtın Yasamal rayonunda baş verən yanğınla bağlı məlumat yayıb. FHN-dən AZƏRTAC-a bildiriblər ki, yanğın Yasamal rayonunda bir-birinə bitişik tikilmiş ümumi sahəsi 90 kvadratmetr olan dörd otaqlı evdə qeydə alınıb. Hadisə nəticəsində həmin ev, həmçinin ümumi sahəsi 78 kvadratmetr olan üç otaqlı evin dam örtüyü 58 kvadratmetr sahədə yanıb. Yanğının kəşfiyyatı zamanı Süleymanova Zərgül Nəriman qızının cəsədi aşkar olunub. Evin qalan hissəsi və bitişik evlər yanğından mühafizə olunub, alov söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

# Zaqafqaziya və Azərbaycan Xalq Cümhuriyyəti Böyük Britaniyanın nüfuz dairəsində

***Azərbaycan dövlətçilik tarixində mühüm yer tutan AXC mürəkkəb bir beynəlxalq şəraitdə yarandı. Birinci Dünya müharibəsi 1918-ci ildə başa çatdı. Müharibədə Böyük Britaniyanın başçılıq etdiyi Antanta ölkələri Dördlər İttifaqına (Osmanlı Türkiyəsinin də daxil olduğu) qalib gəldi. Məğlub ölkələr sırasında olan Türkiyə və Böyük Britaniya arasında bağlanmış Mudros (1918-ci il oktyabrın 30-da) Müqaviləsinə görə Türkiyə Zaqafqaziyadan, o cümlədən, Azərbaycandan öz hərbi qüvvələrini çıxartmalı oldu, Zaqafqaziya, o cümlədən, Azərbaycan Böyük Britaniyanın nüfuz dairəsinə daxil edildi. Ona görə də, Bakıya ingilis qoşunları yeridildi.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

"Azərbaycan tarixi" kitabında AXC nümayəndə heyəti və ingilis hərbi komandanlığı arasındakı danışığın təfərrüatı verilib:

N.Usubbəyov, Ə.Ağayev və M. Rəfiyevdən ibarət olan Azərbaycan nümayəndə heyətinin İrandakı ingilis qoşunlarının komandanı general Tomsonla Ənzəlidə apardığı danışıqların nəticələri Azərbaycan tərəfi üçün heç də ümidverici olmadı. Bu zaman Azərbaycan dövlətçiliyi ideyasının düşmənlərinin təsiri altında olan general Tomson bildirdi ki, "Azərbaycan Respublikası hökuməti türklərin intriqası nəticəsində yaranmış və xalq arasında heç bir dayağa malik deyildir". Azərbaycan nümayəndələrinin generalın bu fikrinə etirazından sonra o, əlavə etmişdi: "Bir halda ki, siz əksini iddia edirsiniz, onda gələrik, yerindəcə təhqiqat aparıb, müvafiq qərar qəbul edərik".

General Tomson Ənzəlidən Bakıya yola düşməzdən əvvəl, bəyannamə ilə çıxış etdi. Bəyannamədə deyilirdi:

"I. Noyabrın 17-si saat 10-na kimi Bakı həm türk, həm də Azərbaycan qoşunlarından təmizlənməlidir;

II. Bakı şəhəri neft mədənləri ilə birlikdə işğal olunmuş ölkənin qalan hissəsi isə Azərbaycan hökuməti və qoşunlarının nəzarəti altında qalacaqdır;

III. Azərbaycan Respublikası rəsmi olaraq tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri Azərbaycan hökuməti ilə de-fakto əlaqələr yaradacaqlar;

IV. Aşağıdakı dəyişikliklər istisna olmaqla, bütün müəssisə və təşkilatlar öz adi fəaliyyətlərini davam etdirirlər:

a) general Tomson Bakının general-qubernatoru təyin olunur;

b) şəhər polisinə ingilis komandanlığının nümayəndəsi başçılıq edir;

v) şəhər Dumasına yenidən əvvəlki fəaliyyət sərbəstliyi verilir;

q) Paris Sülh Konfransında millətlərin öz müqəddəratını təyinetmə prinsipi ətrafında gedən diskussiyalardan Azərbaycan kənarlaşdırılmayacaq;

d) L.Biçeraxov və onun hissələri ingilis qoşunları ilə birlikdə Bakıya daxil olurlar;

e) silahlı ermənilər Bakıya buraxılmırlar".

1918-ci il noyabrın 17-də ingilis qoşunları Biçeraxovun dəstələri ilə birlikdə Bakıya daxil oldular. Bununla əlaqədar general Tomsonun şəhər əhalisinə müraciətinin mətnində bircə yerdə belə "Azərbaycan" sözü işlədilməmişdi. Bu, ingilislərin Azərbaycanın müstəqilliyi ideyasına mənfi münasibətindən irəli gəlirdi. Tomsonun fikrincə, Qafqaz Rusiyanın tərkib hissəsi idi, sonuncu isə İngiltərənin müttəfiqi olaraq qalırdı.

Belə bir şəraitdə ruslar və ermənilər Azərbaycanın müstəqilliyini tanımaq istəmir, müstəqillikdən imtina etmək əvəzinə, azərbaycanlılara öz hökumətlərində bir qədər artıq yer verəcəklərini həyasızcasına bəyan edirdilər.

Azərbaycan parlamentinin açılışı ilə Tomson Azərbaycan hökumətini Bakıda konstruktiv dialoqu hazır olan yeganə ciddi qüvvə hesab etdi.

1918-ci il dekabrın 26-da yaradılmış yeni, üçüncü Azərbaycan hökumətinin təşkili ilə əlaqədar olaraq general Tomson dekabrın 28-də bəyanat verdi. Bəyanatda deyilirdi: "Xoyskinin sədrliyi ilə koalision hökumətin təşkili ilə bağlı olaraq, bəyan edirəm ki, müttəfiq komandanlığı Azərbaycanın hüdudları daxilində yeganə qanuni hakimiyyət təmsilçisi olan bu hökumətə hərtərəfli yardım göstərəcəkdir".

Xoyski hökumətinin general Tomson tərəfindən Azərbaycanda yeganə qanuni hakimiyyət kimi tanınması "vahid və bölünməz Rusiya" bayrağı altında çıxış edən qüvvələrə bir qədər ayıldıcı təsir göstərsə də, onları Azərbaycan hökumətini devirmək fikrindən daşındırmadı. Bu qüvvələr Tomsonun bəyanatından sonra da Azərbaycan Respublikasına qarşı pozuculuq fəaliyyətlərini davam etdirirdilər. Azərbaycanda hakimiyyəti ələ keçirmək məqsədi ilə onlar 1919-cu il yanvar ayının əvvəllərində "Qafqaz-Kaspi hökuməti" deyilən oyuncaq bir qurum yaratdılar. Lakin ingilis komandanlığı, nəinki bu "hökumət" müdafiə etmədi, əksinə, 1919-cu il yanvarın 22-də Bakıya gəlmiş Zaqafqaziyadakı müttəfiq qoşunlarının baş komandanı general C.Milton Nazirlər Şurasının sədri F.X.Xoyski ilə görüşü zamanı, bir daha bildirdi ki, ingilislər Azərbaycan hökumətini Azərbaycan Respublikası ərazisində yeganə leqal hakimiyyət kimi qəbul edir və ona müttəfiq komandanlığı tərəfindən hərtərəfli yardım göstəriləcəkdir. General Milton, onu da əlavə etməyi lazım bildi ki, müttəfiq komandanlığı yenicə yaradılmış Zaqafqaziya dövlətlərinin daxili işlərinə qarışmayacaqdır.

Miltonun bu bəyanatı L.Biçeraxov "hökuməti"nin taleyini, faktiki olaraq, həll etmiş oldu. 1919-cu il fevralın 28-də Azərbaycan hökuməti müttəfiq komandanlığına nota təqdim etdi. Notada tələb olunurdu ki, Bakıda asayişin bərqərar edilməsinə mane olan L.Biçeraxovun qoşunları şəhərdən çıxarılsın və erməni silahlı birləşmələri tərk-silah edilsin. İngilislər Azərbaycan hökumətinin bu tələblərini müdafiə etdilər və 24 saat ərzində Biçeraxovun qoşunları Bakıdan çıxarıldı və erməni dəstələri isə tərk-silah olundu.

Azərbaycan hökumətinin mövqeyi gücləndikcə, ingilis komandanlığının ictimai-siyasi həyatın müəyyən sahələrində onun fəaliyyəti üzərinə qoyduğu məhdudiyyətlər də, tədricən aradan götürülürdü. Belə ki, Azərbaycan hökumətinin polis, maliyyə idarələri, mətbuat, Bakı Dəniz Limanının fəaliyyəti üzərində tam nəzarəti bərpa edildi. General Tomsonun tutduğu Bakı general-qubernatoru vəzifəsi ləğv olundu.

Yuxarıda qeyd edildiyi kimi, general Tomsonun noyabr bəyannaməsinə əsasən, Azərbaycan hökumətinə Bakıda ordu saxlamaq qadağan edilmişdi. Buna görə də, 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək Azərbaycan Respublikasının Hərbi Nazirliyi Gəncədə fəaliyyət göstərməli oldu. 1919-cu ilin aprelində bu sonuncu məhdudiyyət də ləğv edildi və Azərbaycan qoşunları təntənəli surətdə Bakıya daxil oldular. Beləliklə, dövlət aparatının, istisnasız olaraq, bütün strukturları Azərbaycan hökumətinin yurisdiksiyası altına keçmiş oldu.

ABŞ tədqiqatçısı Taduet Svyatokovski Böyük Britaniyanın Azərbaycana gəlitşinə bir qədər fərqli yanaşır: "Türk qoşunları çıxan kimi britaniyalılar onların yerini tutdular. Hər iki Azərbaycan yenidən kənar qüvvənin himayəsi altına düşdü. Britaniya Azərbaycana, hər mənada Türkiyədən çox uzaq idi və o, Azərbaycan birliyinin gələcəkdə də möhkəmləndirilməsi məsələsinə az maraq göstərirdi. Britaniyalıların niyyəti İranda qeyri-müəyyən müddətə qalmaqdan ibarət idi. Rusların təsir dairəsi azaldığından, onlar İrana bütöv bir ölkə kimi baxırdılar. Eyni zamanda, britaniyalılar risk edərək, Zaqafqaziyaya girmələrini Rusiya vətəndaş müharibəsinin törətdiyi qarışıqlıq nəticəsində, müvəqqəti mümkün olan bir iş sayırdılar. Bununla belə, Hindistanda xidmət etmiş britaniyalılardan bəziləri şiə müsəlmanlarından ibarət böyük bir dövlətin yaradılmasını rəğbətlə qarşılayırdılar və həmin bu dövlət bolşevik Rusiyası və sünni Türkiyəsi arasında Britaniyanın varlığını göstərən bir amil olacaqdı. Britaniyalılardan biri - Danstervillin davamçısı, Britaniyanın Şimali İran qüvvələrinin komandiri general V.M.Tomson idi. O, Zaqafqaziyanı bolşeviklərdən azad edilmiş Rusiyaya yenidən birləşdirmək kimi gizli məqsəd güdərək, noyabrın 17-də Bakıya varid oldu. Ayağı Azərbaycan torpağına dəyən kimi, Azərbaycanın bayrağının endirilməsi əmrini verməsinə baxmayaraq, o, hakimiyyəti Bakıdakı rus kadet partiyasına verməyə istəmirdi, çünki bu halda, o, əhalinin ancaq məhdud, yerli olmayan bir fraksiyasının dəstəyini qazana bilərdi. O, rusların belə bir nöqteyi-nəzəri ilə də razılaşa bilməzdi ki, Azərbaycan bir ovuc siyasi avantürist təxəyyülünün məhsuludur. O, qeyd edirdi ki, Xoyski hökuməti ölkədə yeganə həqiqi və milli vətəndaşlardan təşkil olunmuş hökumətdir".

T.Svyatokovski göstərir ki, Tomson həm də azərbaycanlıların ermənilərlə olan ərazi mübahisəsində birincilərin tərəfini saxlamaq mövqeyini tutdu.

Hər iki hökumətin dəyişməz qəbul edəcəyi bircə qarış da sərhəd zolağı yox idi, bununla belə Naxçıvan, Zəngəzur və hər şeydən əvvəl, Dağlıq Qarabağ diqqət mərkəzində olan ərazilər idi. Dağlıq Qarabağ iqtisadi cəhətdən Şərqi Zaqafqaziyadan asılı olmaqla, Naxçıvandan Türkiyəyə uzanan strateji dəhlizdə yerləşmişdi. Kimin idarə etməsindən asılı olaraq, Dağlıq Qarabağ Azərbaycanla Anadolu arasındakı əlaqələrdə ya körpü, ya da sədd rolunu oynaya bilərdi. Türklər çıxıb getdikdən sonra, general Andronik həmin bu mübahisəli ərazidə erməni üsuli-idarəsini genişləndirməyə cəhd göstərdi, lakin dekabrın 1-də Tomson ondan hərbi əməliyyatları dayandırmağı xahiş etdi. Bundan başqa, 1919-cu il yanvarın ortalarında-ca Tomson Dağlıq Qarabağı qonşu Zəngəzur uyezdi ilə birgə müvəqqəti Azərbaycan idarəçiliyinə həvalə etdi. Tomson Xosrov Sultanovun hər iki ərazi bölgüsü üzrə hakimliyini təsdiq edəndə, ermənilərin reaksiyası daha kəskin şəkil aldı. Tomson qeyd edirdi ki, Britaniya işğalı intiqam üçün fürsət sayıla bilməz. Onun cari məsələyə dair şəxsi fikri əhali yerdəyişməsi üsulundan istifadə edilməsindən ibarət idi: "Böyük miqyasda olmasa da köçürmə, şübhəsiz, zəruri olacaq. Məsələn, nə Qarabağda erməni anklavı qala bilər, nə də hal-hazırdakı kimi düşmən müsəlmanlar İrəvanın cənubiqərbində oturub qala bilərlər".

Sultanov qarşılaşdığı hər cür etirazlara baxmayaraq, daha bir neçə ay ərzində Dağlıq Qarabağdakı erməni icmasının Azərbaycan idarəçiliyini rəsmən tanımasına müvəffəq oldu. Qəbul edilmiş qərara görə, erməni etnik anklavını dağlar arxasındakı Ermənistandan çox, Azərbaycanla bağlayan coğrafi, iqtisadi və nəqliyyat reallıqları tanındı. Bu əhəmiyyətli addımın nə dərəcədə özünü doğruldacağı dinc vaxtda Azərbaycan qarnizonlarının kəmiyyətini və yerdəyişməsini məhdudlaşdıran bir sıra şərtlərdən asılı idi.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Səs

Son səhifə 24 avqust

## Türkiyənin Van şəhərində 2800 illik at skeleti tapılıb

Türkiyənin Van şəhərindəki Çavuştəpə qalasında qazıntı işləri zamanı təxminən 2800 il bundan əvvələ aid at skeleti tapılıb. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, skeletin Urartu dövründən qaldığı müəyyən edilib. Qazıntılarda iştirak edən professor Hakan Yılmaz bildirib ki, bu, indiyə qədər görünməmiş hadisədir. Skeletin yanında çoxlu dəmir qalıqları da aşkar olunub. At skeleti ətraflı analiz ediləcək. Qeyd edək ki, 2014-cü ildən bu qalada qazıntı işləri aparılıb və çoxlu tarixi əşyalar aşkar olunub.



## Bütün zamanların ən yaxşı komediya filmi

Dünya kinosunun 100 ən yaxşı komediyasını müəyyənləşdirmək üçün "BBC Culture" tərəfindən sorğu keçirilib. AZƏRTAC www.bbc.com saytına istinadla xəbər verir ki, sorğuda 52 ölkədən 253 kinotənqidçi iştirak edib. Sorğunun nəticələrinə görə, amerikalı rejissor Billi Uaylderin "Cazda yalnız qızlardır" filmi bütün zamanların ən yaxşı komediyası seçilib. İkinci yeri Stenli Kubrikin "Doktor Streynclav", üçüncü yeri isə Vudi Allenin "Enni Holl" filmi tutub. İlk beşliyə, həmçinin Harold Ramisin "Marmot günü" və Leo Makkerinin "Ördək şorbası" filmi daxildir. Xatırladaq ki, avqustun 22-də "Forbes" jurnalı bu il ən çox qazanan aktyorların siyahısını dərc edib. Siyahıya 68 milyon dollar qazanan Mark Uolberqin adı birinci yerdə olub.



## Norveçdə dünyanın ən böyük Data Mərkəzi tikiləcək

"Kolos" şirkəti Norveçin şimalında, Ballangen şəhərinin yaxınlığında dünyanın ən böyük Data Mərkəzini tikməyi planlaşdırır. AZƏRTAC hi-news.ru saytına istinadla xəbər verir ki, bu bölgənin soyuq iqlimi effektiv soyutma sistemi yaratmağa, bir çox yenilənən enerji mənbələrinin olması isə enerji təchizatı problemini həll etməyə imkan verəcək. "Kolos" şirkətinin nümayəndələri bildirirlər ki, informasiya Data Mərkəzin fəaliyyəti üçün lazım olan enerji küləyin köməyi və yaxınlıqdakı su elektrik stansiyaları ilə əldə olunacaq. Mütəxəssislərin hesablamalarına görə, tikintiyə bir aya təxminən 1000 meqavat enerji lazım olacaq. Lakin Qütb regionunun soyuq iqlimi bu göstəricini 60 faiz azaltmağa imkan verəcək.

"Kolos" şirkətinin dizaynerləri Norveçin "HDR" şirkətinin memarları ilə birgə gələcək tikilinin ilkin layihəsini hazırlayıblar. Yaxın vaxtlarda binanın planının təsdiq olunması planlaşdırılır. İlkin hesablamalara əsasən, tikinti bir neçə il ərzində 3 min işçinin iştirakı ilə tikiləcək.

## Ağ koalaya ad axtarılır

Avstraliyanın Kvinslənd əyalətindəki zooparkda doğulmuş ağ tüklü koalanın şəkil və videoları sosial şəbəkələrdə paylaşılıb. AZƏRTAC xəbər verir ki, zooparkın nümayəndələri hər kəsin diqqətini cəlb edən dişi koalaya ad verilməsi üçün izləyicilərə müraciət ediblər. Dişi bala üçün sosial şəbəkə istifadəçiləri tərəfindən Qar dənəsi, İnci, Şeyla, Sandi, Blanş, Binc kimi bir çox adlar təklif edilib. Tezliklə koalaya uyğun adın təkliflər arasından seçilərək veriləcəyi bildirilib.



# Norveç və San-Marino yığmaları ilə oyunlar üçün Azərbaycan millisinin heyəti açıqlanıb




2018-ci ildə Rusiyada təşkil olunacaq dünya çempionatının seçmə mərhələsi çərçivəsində sentyabrın 1-də Oslo şəhərində Norveç, sentyabrın 4-də isə Bakıda San-Marino yığması ilə qarşılaşacaq Azərbaycan milli komandasının heyəti açıqlanıb. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, heyətə Kamran Ağayev ("Mlada", Çexiya), Anar Nəzirov ("Zirə"), Səlahət Ağayev ("Neftçi"), Tərlan Quliyev ("İnter"), Bədavi Hüseynov, Rəşad Sadıqov, Maksim Medvedev (hər üçü "Qarabağ"), Pavel Paşayev ("Aleksandriya", Ukrayna), Maqomed Mirzabekov ("Neftçi"), Ürfan Abbasov ("Qəbələ"), Ruslan Abışov ("Neftçi"), Rahid Əmirquliyev, Qara Qarayev (hər ikisi "Qarabağ"), Dmitri Nazarov ("Aue", Almaniya), Təmkin Xəlilzadə ("Zirə"), Mahir Mədətov ("Qarabağ"), Cavid Hüseynov ("Qəbələ"), Araz Abdullayev ("Anortosis", Kipr), Əfran İsmayılov, Riçard Almeyda, Ağabala Ramazanov (hər üçü "Qarabağ"), Ruslan Qurbanov ("Qəbələ"), Namik Ələskərov ("Neftçi"), Ramil Şeydayev ("Jilina", Slovakiya) və Renat Dadaşov ("Ayntraxt", Almaniya) dəvət olunublar.

# Azərbaycan taekvandoçusu qızıl medal qazanıb



Taypey şəhərində təşkil olunan tələbələrin XXIX Ümumdünya Yay Universiadasında Azərbaycanın taekvando üzrə milli komandasının üzvü Milad Beigi Hərçəqani qızıl medal qazanıb. AZƏRTAC xəbər verir ki, universiadanın taekvando yarışlarının ikinci günü də milli komandamız üçün uğurlu olub. Avqustun 23-də kişilərin mübarizəsində Milad Beigi Hərçəqani (80 kq) portuqaliyalı idmançı Jaan Miçel Fernandezə 29:1, Rusiya Federasiyasını təmsil edən Boqdan Qreçkinə 25:8, yaponiyalı Hidenori Ebatana 32:15 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Yarımfinalda ev sahibi ölkənin idmançısı Vey-Tinq Liu ilə görüşən dünya çempionumuz rəqibini mübarizədən kənarlaşdıraraq finala adlayıb - 12:4.

Həlledici qarşılaşmada bu il dünya çempionatında məğlubiyyətə uğratdığı ispaniyalı Raul Martinez Qarsiya ilə üz-üzə gələn Milad 6-3 hesablı qələbə sayəsində Universiadanın qalibi olub.

Azərbaycan taekvandoçusunun şərəfinə dövlət himnimiz səsləndirilib, üçrəngli bayrağımız qaldırılıb. Bugünkü mübarizədə üç taekvandoçumuz isə medal qazana bilməyib. Kişilərin 58 kiloqram çəki dərəcəsində mübarizəsində Əli Məmmədov tailandlı rəqibi Tavin Hanprabla, qadınların yarışında Fəridə Əzizova (67 kq) Koreya Respublikasından olan Yandi Kimlə, daha bir qadın taekvandoçumuz Safiyə Polat (49 kq) isə türkiyəli İpek Çidemlə döyüşdə uduzublar. Qeyd edək ki, yarış "G2" kateqoriyalı olduğundan birinci, ikinci və üçüncü yeri tutan idmançılar, müvafiq olaraq 20, 12 və 7,2 reytinq xalı qazanırlar.

# Elvin Mürsəliyev: "Hakimlərin nöqsanlarına görə finala çıxa bilmədim"



Görüşlər çox ağır idi. İlk görüşüm rus idmançısı Roman Vlasov ilə oldu. O, iki dəfə Olimpiya çempionu, üçqat Avropa və üçqat dünya çempionudur. Ona qalib gələndən sonra özümü finalda qızıl medalçı kimi görürdüm. Bu fikri AZƏRTAC-a müsahibəsində Parisdə keçirilən dünya çempionatının bürünc medalçısı Elvin Mürsəliyev söyləyib. O bildirib ki, ikinci görüşü erməni əsilli Polşa idmançısı ilə olub və rəqibinə vaxtından əvvəl tam üstünlüklə qalib gəlib. "Ancaq təəssüf olsun ki, yarımfinalda hakimlərin bəzi nöqsanlarına görə finala çıxa bilmədim və bürünc medal qazandım. Ümumiyyətlə, mən çempionata medal qazanmaq üçün gəlmişdim. İstəyimə nail oldum. Qarşılaşdığım hər bir idmançı çox güclü rəqiblər idi. Çəkdiyim əziyyətin bəhrəsini görmək istəyirdim", - deyə Elvin Mürsəliyev qeyd edib.

Bakıya qayıtdıqdan sonra məşqçilər korpusunun gələcək planları müəyyən edəcəyini diqqətə çatdıran Azərbaycanlı idmançı bildirib ki, məqsədi növbəti Avropa və dünya çempionatlarında bürünc medalı qızıl medalla əvəz etməkdir.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**